AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNİN 2025-Cİ İL ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR HESABATI

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# MÜNDƏRİCAT

## I BÖLMƏ

## MÜLKİ KOLLEGİYA

1. Ali Məhkəmənin Mülki kollegiyasının fəaliyyətinə dair ümumi məlumat ..... 5
1.1. İcraatda olmuş mülki işlər üzrə ümumi statistik məlumatlar ..... 7
1.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili ..... 8
1.3. Kassasiya şikayətinin mümkünlüyünə dair məlumatlar ..... 8
1.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar ..... 11
1.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar ..... 12
1.6. Baxılmış işlərin kateqoriyaları üzrə təhlili ..... 13
1.7. Kassasiya baxışının nəticələrinin apellyasiya məhkəmələrinə münasibətdə təhlili ..... 16
1.8. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar ..... 16
1.9. İcraatda olmuş digər işlər barədə məlumatlar ..... 18
1.10. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları ..... 20
1.11. Dövlət rüsumları barədə məlumatlar ..... 20

## II BÖLMƏ

## CİNAYƏT KOLLEGİYASI

2. Ali Məhkəmənin Cinayət kollegiyasının fəaliyyətinə dair ümumi məlumat ..... 22
2.1. İcraatda olmuş işlər üzrə ümumi məlumatlar ..... 27
2.2. İcraatda olmuş işlər üzrə icraatın növlərinə (indekslər) dair məlumat ..... 28
2.3. Baxılmış müraciətlərin növlərinə dair məlumat ..... 29
2.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar ..... 30
2.5. Baxışdan çıxarılmış, o cümlədən geri götürülmüş müraciətlərə dair məlumatlar ..... 31
2.6. Məhkəmə aidiyyətinin müəyyən edilməsinə dair müraciətlərlə bağlı məlumatlar ..... 32

2.7. Kassasiya müraciətlərinə baxılması nəticələrinə dair ümumi məlumatlar ..................34
2.8. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə təhlili .............35
2.9. Baxılmış işlərin indekslərinə görə apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar .............................................................36
2.10. Baxılmış cinayət işlərinin kateqoriyalarına görə təhlili ..................................37
2.11. Baxılmış cinayət işlərinin kateqoriyalar və nəticələr üzrə təhlili.............................39
2.12. Hökmün icrası qaydasında baxılan işlərin apellyasiya məhkəmələri üzrə təhlili........41
2.13. Baxılmış işlərin nəticələrinin təhlili.........................................................42
2.14. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş kollegial qərarlar ...........................................................42
2.15. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar).................................43

## III BÖLMƏ

## İNZİBATİ KOLLEGİYA

3. Ali Məhkəmənin İnzibati kollegiyasının fəaliyyətinə dair ümumi məlumat................46
3.1. İcraatda olmuş işlər barədə ümumi statistik məlumatlar ...................................... 48
3.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili ..............................49
3.3. Yekunlaşdırılmış işlərin iddianın növləri üzrə təhlili.................................................49
3.4. Kassasiya şikayətinin mümkünlüyünə dair məlumatlar ........................................50
3.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə təhlili ............ 52
3.6. Baxılmış işlərin nəticələrinə dair məlumatlar ............................................... 53
3.7. Müvəqqəti xarakterli müdafiə tədbirlərinə dair işlərin təhlili ..................................60
3.8. Aidiyyət və etirazlarla bağlı məlumatlar..........................................................61
3.9. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş kollegial qərarlar ...........................................................62
3.10. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları ...................................................63

## IV BÖLMƏ

## KOMMERSİYA KOLLEGİYASI

4. Ali Məhkəmənin Kommersiya kollegiyasının fəaliyyətinə dair ümumi məlumat.....65
4.1. İcraatda olmuş işlər üzrə ümumi statistik məlumatlar ..........................................67

4.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili ....68
4.3. Kassasiya şikayətinin mümkünlüyünə dair statistik məlumatlar ....68
4.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar ....71
4.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar ....72
4.6. Baxılmış işlərin (614 iş) kateqoriyaları üzrə təhlili ....73
4.7. Kassasiya baxışının nəticələrinin apellyasiya məhkəmələrinə münasibətdə təhlili ....75
4.8. Xarici elementli kommersiya mübahisələrinə dair məlumat ....75
4.9. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar ....76
4.10. İcraatda olmuş digər işlər barədə məlumatlar ....77
4.11. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar) .... 80
4.12. Baxılmış işlər üzrə dövlət rüsumlarına dair məlumatlar .... 80

## V BÖLMƏ

## ALİ MƏHKƏMƏNİN PLENUMU

5. Ali Məhkəmənin Plenumunun fəaliyyətinə dair ümumi məlumat ....82
5.1. Ali Məhkəmənin Plenumunun icraatında olmuş işlər barədə məlumat .... 84

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# I BÖLMƏ

# MÜLKİ KOLLEGİYA

01

## 1. Ali Məhkəmənin Mülki kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Ali Məhkəmənin Mülki kollegiyası (bundan sonra- Mülki kollegiya) "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" Ali Məhkəmə Plenumunun qərar layihəsi hazırlanmış və Plenumun 24 dekabr 2025-ci il tarixli 20 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Vahid məhkəmə təcrübəsinin formalaşdırılması və sistemli nöqsanların müəyyən edilməsi məqsədilə Plenumun 4 aprel 2025-ci il tarixli 6 nömrəli qərarına əsasən, uşaqla ünsiyyət və alimentlə bağlı Plenum qərarlarının tətbiqi üzrə məhkəmələrin fəaliyyətinin 1 iyun 2025-ci ildən 1 iyun 2026-cı illədək - bir il müddətində monitorinqinin aparılması qərara alınmışdır.

Alimentin indeksasiyası və torpaq mübahisələrində ekspertizanın keçirilməsi ilə bağlı aşağı instansiya məhkəmələrinə icmal məktubları göndərilmiş və müvafiq hüquqi mövqelər çatdırılmışdır.

Məhkəmə təcrübəsində hüquqi mövqelərin sabitliyinin təmin edilməsi məqsədilə Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsinə uyğun olaraq daşınmaz əmlakın vicdanlı əldə edilməsi ilə bağlı mübahisəli məsələlərin Mülki və Kommersiya kollegiyalarının birgə müzakirəsinə çıxarılmışdır.

Mülki kollegiya 2025-ci ildə qəbul etdiyi qərarlarla qanunvericiliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı çoxsaylı hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırmış və 19 iş üzrə 3 ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə qərarları qəbul edilərək, axtarış sisteminə daxil edilmişdir.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurasının 10 iyun 2024-cü il tarixli iclasında "Şərəf, ləyaqət, işgüzar nüfuzun müdafiəsi və digər qeyri-əmlak hüquqlarının pozulmasına görə mənəvi zərərin ödənilməsi" mövzusunda mövcud nəzəri və praktiki problemlər müzakirə edilmişdir.

Mülki məhkəmə icraatında vahid məhkəmə təcrübəsinin və məhkəmə qərarlarının sabitliyinin təmin edilməsi məqsədilə Mülki Kollegiyanın sədri tərəfindən il ərzində aşağı instansiya məhkəmələrinin hakimləri ilə onlayn videokonfrans formatında mütəmadi aylıq görüşlər keçirilmiş, mübahisəli hüquqi məsələlər üzrə izahlar verilmişdir.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin həyata keçirdiyi Ailə Məcəlləsinin təkmilləşdirilməsi və "Uşaq hüquqları haqqında" yeni qanun layihəsinin qəbul edilməsi layihələri üzrə ətraflı rəy və təkliflər təqdim edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş 13 məsələ üzrə yazılı mülahizələr verilmişdir.

Mülki kollegiya tərəfindən Müdafiə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi Publik Hüquqi Şəxsi və digər qurumlarından daxil olmuş qanun layihələri və digər normativ hüquqi aktlar üzrə rəy və təkliflər, məhkəmə təcrübəsi ilə bağlı müraciətlərinə isə müvafiq cavablar verilmişdir.

Mülki kollegiyanın hakimləri vəkillərlə, həmçinin Ədliyyə Nazirliyinin Notariat idarəsi, "Azəriqaz" İB-nin və Azərbaycan Qiymətləndiricilər Palatasının nümayən-

dələri ilə görüşlər keçirmiş, məhkəmə təcrübəsində rast gəlinən problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Fevral ayının 28-də Bakıda keçirilmiş Azərbaycan Hakimlərinin I Forumu çərçivəsində "Mülki işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti, islahatlar və müasir çağırışlar" mövzusunda panel müzakirələr təşkil edilmişdir.

Hesabat ilində Mülki kollegiyanın hakimləri Elşanə Vəliyeva "Hakimliyə namizədlərin və hakimlərin tədrisində səmərəli fəaliyyətə görə" və Zaur Əliyev "Ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində hüquq elminin inkişafına verdiyi töhfəyə görə" "İlin hakimi" mükafatı ilə təltif olunmuşdur.

Mülki kollegiya iyul ayının 8-də Azərbaycan Respublikasının Ali Məhkəməsində Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) Hüquq dairəsi, Azərbaycan Respublikası Mediasiya Şurası, birinci və apellyasiya instansiyası məhkəməsinin hakimləri, mediatorlar və aidiyyəti qurumların nümayəndələri ilə birlikdə "Ailə mübahisələrində mediasiya institutunun tətbiqinin əhəmiyyəti və beynəlxalq təcrübə" mövzusunda dəyirmi masa təşkil etmişdir.

9-10 iyul tarixlərində Azərbaycan Respublikasının Ali Məhkəməsində Mülki kollegiya ilə Türkiyə Respublikasının Ali Məhkəməsinin (Yargıtay) Hüquq dairəsi arasında işgüzar görüşlər keçirilmiş, əsassız varlanma, vicdanlı alıcı, mənəvi ziyanın tutulması, habelə mülki hüququn digər sahələri ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Cari ildə Mülki kollegiyanın sədri tərəfindən 248 vətəndaşın qəbulu (22 qəbul) həyata keçirilmişdir.

## 1.1. İcraatda olmuş mülki işlər üzrə ümumi statistik məlumatlar

Hesabat dövründə Mülki kollegiyanın icraatında olmuş işlər, o cümlədən qalıq keçmiş işlər, daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti hesabat dövrünə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat[1] | 4524 | 4163 | -361 (-8%) |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 624 (13,8%) | 495 (11,9%) | -129 (-20,7%) |
| Hesabat dövründə daxil olan işlər | 3900 (86,2%) | 3668 (88,1%) | -232 (-5,9%) |
| Yekunlaşdırılmış işlər | 4029 (89%) | 3685 (88,5%) | -344 (-8,5%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 495 (11%) | 478 (11,5%) | -17 (-3,5%) |




[1] Bu təhlilə xarici ölkələrin qətnamələrinin tanınması və icrası barədə işlər daxil edilməmişdir, həmin məlumatlar Hesabatın 2.14-cü paraqrafında verilmişdir.

## 1.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili

İl ərzində icraatda olan mülki işlərin icraatların növü üzrə (indeks üzrə) bölgüsü aşağıdakı qaydada olmuşdur:

| İcraatın növü | Cəmi icraat | | | İşlərin yekunlaşdırılma göstəriciləri | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| Mülki işlər | 4524 (100%) | 4163 (100%) | -8% | 4029 (89%) | 3685 (88,5%) | -8,5% |
| Onlardan: qətnamə | 3977 (87,9%) | 3707 (89,1%) | -6,8% | 3494 (87,8%) | 3248 (87,6%) | -7% |
| Onlardan: qərardad | 423 (9,35%) | 344 (8,26%) | -18,6% | 413 (97,6%) | 329 (95,6%) | -20,3% |
| Onlardan: aidiyyət mübahisələri | 94 (2,07%) | 88 (2,1%) | -6,4% | 92 (97,9%) | 87 (98,9%) | -5,4% |
| Onlardan: qərarların icrası qaydasında icraat | 2 (0,05%) | - | - | 2 (100%) | - | - |
| Təqdimat | 25 (0,56%) | 22 (0,5%) | -12% | 25 (100%) | 20 (90,9%) | -20% |
| Məhkəmə tərkibinə etiraz | 3 (0,07%) | 2 (0,04%) | -33% | 3 (100%) | 1 (50%) | -66,6% |

## 1.3. Kassasiya şikayətinin mümkünlüyünə dair məlumatlar

Hesabat dövründə yekunlaşdırılmış 3577 iş (ümumilikdə yekunlaşdırılmış iş sayı 3685 işə bərabərdir, bununla belə bu təhlildə yalnız apellyasiya məhkəmələrinin aktlarından verilmiş kassasiya şikayətləri üzrə icraatda olmuş işlər nəzərə alınmış, məhkəmə aidiyyətinə dair mübahisələr, məhkəmə tərkibinə etirazlar və təqdimatlar ümumi saya daxil edilməmişdir: 3685-87-20-1=3577) üzrə kassasiyanın mümkünlüyünün yoxlanılması nəticələri aşağıdakı kimi olmuşdur:



### *Kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsü (yekunlaşdırılmış işlərə münasibətdə faiz göstərici ilə)*




### *Qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış kassasiya şikayətlərinin apellyasiya instansiyası məhkəmələri üzrə bölgüsü*



### *Kassasiya şikayətlərinin qeyri-mümkün hesab edilməsi və kassasiya baxışından çıxarılması ilə bağlı son 5 ilin göstəriciləri*




### *Ötən ilin göstəriciləri ilə müqayisəli təhlil*

**İşlərin cəmi**
- 2024: 331 iş
- 2025: 314 iş

**Aradan qaldırıla bilən pozuntular**
- 2024: 237 iş (71,6%)
- 2025: 218 iş (69,4%)

**Aradan qaldırılması mümkün olmayan pozuntular**
- 2024: 46 iş (13,9%)
- 2025: 60 iş (19,1%)

**Digər şəxsin kassasiya şikayəti ilə əlaqədar apellyasiya məhkəməsinin müraciəti və şəxsin öz müraciəti**
- 2024: 48 iş (14,5%)
- 2025: 36 iş (11,5%)

***Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi əsasları***

***Aradan qaldırıla bilən pozuntular:***




***Aradan qaldırılması mümkün olmayan pozuntular:***




## 1.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar

Hesabat dövründə Mülki kollegiyada baxılmış işlərin nəticələri, o cümlədən kassasiya icraatına xitam verilmiş işlər aşağıdakı kimi olmuşdur:

| Kassasiya baxışının nəticələri | 2024 | 2025 | Faiz göstəricilərinin müqayisəsi |
|---|---|---|---|
| Məhkəmə aktının dəyişdirilmədən saxlanılması | 2879 iş (80,7%) | 2681 iş (82,5%) | +1,8% |
| Məhkəmə aktının dəyişdirilməsi | 30 iş (0,9%) | 27 (0,8%) | -0,1% |
| Məhkəmə aktının ləğv edilməsi | 656 iş (18,4%) | 542 (16,7%) | -1,7% |
| Cəmi | 3565 iş (100%) | 3250 (100%) | - |
| O cümlədən, kassasiya icraatına xitam verilməsi | 13 iş | 13 iş | - |
| Baxılmış və kassasiya icraatına xitam verilmiş işlərin cəmi | 3578 iş | 3263 iş | - |

## 1.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 2116 | 2029 | -4,1% | 2148 | 2070 | -4% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 560 | 442 | -21% | 564 | 434 | -23% |
| Gəncə Apellyasiya Məhkəməsi | 463 | 442 | -4,5% | 500 | 440 | -12% |
| Şəki Apellyasiya Məhkəməsi | 281 | 256 | -9% | 298 | 253 | -15% |
| Şirvan Apellyasiya Məhkəməsi | 330 | 351 | +6,4% | 363 | 338 | -7% |
| Naxçıvan MR Ali Məhkəməsi | 34 | 39 | +15% | 36 | 42 | +17% |
| Cəmi | 3784 | 3559 | -6% | 3909 | 3577 | -8% |

### Daxil olan işlər kütləsi




### Həll edilən işlər kütləsi



## 1.6. Baxılmış işlərin kateqoriyaları üzrə təhlili

Kassasiya qaydasında baxılmış cəmi 3250 işdən 2975 iş üzrə apellyasiya məhkəməsinin qətnaməsi, 275 iş üzrə isə apellyasiya məhkəməsinin qərardadı kassasiya baxışının predmeti olmuşdur.

***Kassasiya qaydasında baxılmış qətnamələrin təhlili:***

***I. Apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgü:***

| İşlərin kateqoriyaları | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Ailə-nikah münasibətlərindən yaranan mübahisələr | 217 (50,8%) | 66 (15,5%) | 47 (11%) | 37 (8,7%) | 53 (12,4%) | 7 (1,6%) | 427 (100%) |
| Mülkiyyət hüququ, digər əşya hüquq münasibətlərindən yaranan, o cümlədən mənzil, torpaq mübahisələri | 379 (51,9%) | 91 (12,4%) | 119 (16,3%) | 78 (10,7%) | 61 (8,4%) | 2 (0,3%) | 730 (100%) |
| Əmək mübahisələrindən yaranan mübahisələr | 202 (71,4%) | 20 (7,1%) | 18 (6,4%) | 10 (3,5%) | 26 (9,1%) | 7 (2,5%) | 283 (100%) |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 189 (71,1%) | 19 (7,1%) | 28 (10,5%) | 11 (4,1%) | 18 (6,8%) | 1 (0,4%) | 266 (100%) |
| Kredit (borc) müqaviləsi üzrə mübahisələr | 113 (46,9%) | 41 (17%) | 36 (14,9%) | 13 (5,4%) | 33 (13,7%) | 5 (2,1%) | 241 (100%) |
| Əqdlərin etibarsızlığı ilə bağlı mübahisələr | 143 (64,4%) | 24 (10,8%) | 34 (15,3%) | 10 (4,5%) | 7 (3,2%) | 4 (1,8%) | 222 (100%) |
| Vərəsəlik hüququndan yaranan mübahisələr | 52 (43,7%) | 33 (27,7%) | 14 (11,8%) | 11 (9,2%) | 9 (7,6%) | - | 119 (100%) |
| Digər müqavilələr | 90 (80,4%) | 4 (3,6%) | 5 (4,5%) | 5 (4,5%) | 8 (7%) | - | 112 (100%) |
| Alqı-satqı müqaviləsi üzrə mübahisələr | 33 (46,5%) | 12 (16,9%) | 10 (14,1%) | 4 (5,6%) | 11 (15,5%) | 1 (1,4%) | 71 (100%) |
| Müqavilələrin dəyişdirilməsi, ləğvi və sairlə bağlı mübahisələr | 43 (68,3%) | 6 (9,5%) | 4 (6,3%) | 10 (15,9%) | - | - | 63 (100%) |
| İpoteka müqaviləsi üzrə mübahisələr | 30 (78,9%) | 3 (7,9%) | 1 (2,6%) | 2 (5,3%) | 2 (5,3%) | - | 38 (100%) |
| Şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı mübahisələr | 22 (61,1%) | 2 (5,6%) | 2 (5,6%) | 3 (8,3%) | 7 (19,4%) | - | 36 (100%) |
| Xüsusi icraat işləri | 9 (36%) | 6 (24%) | 5 (20%) | 1 (4%) | 4 (16%) | - | 25 (100%) |
| Sığorta fəaliyyətindən irəli gələn mübahisələr | 19 (95%) | 1 (5%) | - | - | - | - | 20 (100%) |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| İcarə (kirayə) müqavilələrindən yaranan mübahisələr | 12 (70,6%) | 1 (5,9%) | 1 (5,9%) | - | 3 (17,6%) | - | 17 (100%) |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 1 (50%) | - | 1 (50%) | - | - | - | 2 (100%) |
| Digər işlər | 196 (64,7%) | 33 (10,9%) | 13 (4,3%) | 24 (7,9%) | 30 (9,9%) | 7 (2,3%) | 303 (100%) |
| Cəmi | 1750 (58,8%) | 362 (12,2%) | 338 (11,4%) | 219 (7,4%) | 272 (9,1%) | 34 (1,1%) | 2975 (100%) |

## *II. Kassasiya baxışının nəticələrinə münasibətdə bölgü:*

| İşlərin kateqoriyaları | Cəmi | Ümumi qətnamələrlə faiz nisbəti | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş | Dəyişdirilmiş |
|---|---|---|---|---|---|
| Ailə-nikah münasibətlərindən yaranan mübahisələr | 427 | 14,4% | 345 80,8% | 73 17,1% | 9 2,1% |
| Mülkiyyət hüququ, digər əşya hüquq münasibətlərindən yaranan, o cümlədən mənzil, torpaq mübahisələri | 730 | 24,5% | 595 81,5% | 128 17,5% | 7 1% |
| Əmək mübahisələrindən yaranan mübahisələr | 283 | 9,5% | 235 83% | 47 16,6% | 1 0,4% |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 266 | 8,9% | 221 83,1% | 39 14,7% | 6 2,3% |
| Kredit (borc) müqaviləsi üzrə mübahisələr | 241 | 8,1% | 206 85,5% | 35 14,5% | - |
| Əqdlərin etibarsızlığı ilə bağlı mübahisələr | 222 | 7,5% | 184 82,9% | 38 17,1% | - |
| Vərəsəlik hüququndan yaranan mübahisələr | 119 | 4% | 100 84% | 19 16% | - |
| Digər müqavilələr | 112 | 3,8% | 90 80,4% | 20 17,9% | 2 1,8% |
| Alqı-satqı müqaviləsi üzrə mübahisələr | 71 | 2,4% | 59 83,1% | 12 16,9% | - |
| Müqavilələrin dəyişdirilməsi, ləğvi və sairlə bağlı mübahisələr | 63 | 2,1% | 51 81% | 12 19% | - |
| İpoteka müqaviləsi üzrə mübahisələr | 38 | 1,3% | 33 86,8% | 5 13,2% | - |
| Şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı mübahisələr | 36 | 1,2% | 24 66,7% | 11 30,6% | 1 2,8% |
| Xüsusi icraat işləri | 25 | 0,8% | 21 84% | 4 16% | - |
| Sığorta fəaliyyətindən irəli gələn mübahisələr | 20 | 0,7% | 14 70% | 6 30% | - |
| İcarə (kirayə) müqavilələrindən yaranan mübahisələr | 17 | 0,6% | 13 76,5% | 4 23,5% | - |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 2 | 0,1% | - | 2 100% | - |
| Digər işlər | 303 | 10,2% | 258 85,1% | 44 14,5% | 1 0,3% |
| Cəmi | 2975 | 100% | 2449 82,3% | 499 16,8% | 27 0,9% |

### *Kassasiya qaydasında baxılmış qərardadların təhlili:*

### *I. Apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgü:*

| Prosessual məsələnin məzmunu | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Iş üzrə icraata xitam verilməsi | 43 (56,6%) | 6 (7,9%) | - | 14 (18,4%) | 1 (1,3%) | 12 (15,8%) | 76 (100%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 33 (44,6%) | 14 (18,9%) | 1 (1,4%) | 14 (18,9%) | 2 (2,7%) | 10 (13,5%) | 74 (100%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 31 (47%) | 9 (13,7%) | 1 (1,5%) | 8 (12,2%) | 7 (10,6%) | 10 (15%) | 66 (100%) |
| Apellyasiyanın qeyri-mümkünlüyü | 20 (41,6%) | 12 (25%) | - | 7 (14,6%) | 6 (12,5%) | 3 (6,3%) | 48 (100%) |
| MPM 402.2.5 (məhkəmə aidiyyəti) | 2 (20%) | - | - | - | 4 (40%) | 4 (40%) | 10 (100%) |
| MPM 402.2.5 (ərazi aidiyyəti) | - | - | 1 (100%) | - | - | - | 1 (100%) |
| Cəmi | 129 (46,9%) | 41 (14,9%) | 3 (1,1%) | 43 (15,6%) | 20 (7,3%) | 39 (14,2%) | 275 (100%) |

### *II. Kassasiya baxışının nəticələrinə münasibətdə bölgü:*

| Prosessual məsələnin məzmunu | Cəmi | Ümumi qərardadlara faiz nisbəti | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş |
|---|---|---|---|---|
| Iş üzrə icraata xitam verilməsi | 76 (100%) | 27,6% | 59 (77,6%) | 17 (22,4%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 74 (100%) | 26,9% | 68 (91,9%) | 6 (8,1%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 66 (100%) | 24% | 61 (92,4%) | 5 (7,6%) |
| Apellyasiyanın qeyri-mümkünlüyü | 48 (100%) | 17,5% | 37 (77%) | 11 (23%) |
| MPM 402.2.5 (məhkəmə aidiyyəti) | 10 (100%) | 3,6% | 7 (70%) | 3 (30%) |
| MPM 402.2.5 (ərazi aidiyyəti) | 1 (100%) | 0,4% | - | 1 (100%) |
| Cəmi | 275 (100%) | 100% | 232 (84,4%) | 43 (15,6%) |

## 1.7. Kassasiya baxışının nəticələrinin apellyasiya məhkəmələrinə münasibətdə təhlili

Hesabat dövründə Mülki kollegiyada baxılmış işlərin nəticələri (iddiadan imtina, barışıq sazişi və sairə obyektiv əsaslarla ləğv edilmiş məhkəmə aktları da daxil olmaqla) apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:




## 1.8. Məhkəmə aidiyyatınə dair mübahisələrlə bağlı məlumatlar

***Aidiyyət işlərinin daxil olduğu birinci instansiya məhkəmələrinin yurisdiksiyasında olduğu apellyasiya məhkəmələri üzrə bölgü***



***Mülki kollegiyada məhkəmə aidiyyətinə dair baxılmış işlərin son 5 il üzrə müqayisəsi***




Hesabat dövründə icraatda olmuş 88 aidiyyət mübahisəsindən 87 iş yekunlaşdırılmış, 1 iş isə növbəti hesabat dövrünə qalıq keçmişdir. Aidiyyət mübahisələrinin yekun nəticələrinə dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

| Aidiyyət işlərinin cəmi | | Qərardadlardan verilmiş şikayətlərin nəticəsi | | | | Məhkəmələr arasında fikir ayrılığının həlli |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Şikayət təmin edilmiş, qərardad ləğv edilmiş | Şikayət rədd edilmiş, qərardad dəyişdirilmədən saxlanılmış | Şikayət qeyri-mümkün hesab edilmiş | |
| 2024 | 92 | 90 (97,8%) | 18 (20%) | 56 (80%) | 16 | 2 (2,2%) |
| 2025 | 87 | 76 (87,3%) | 23 (40,4%) | 34 (59,6%) | 19 | 11 (12,7%) |

***Ləğv edilmiş məhkəmə aidiyyətinə dair qərardadların təhlili***

| Düzgün müəyyən edilməyən qiymətləndirici meyarın növü | Bakı AM-in yurisdiksiyası üzrə | Sumqayıt AM-in yurisdiksiyası üzrə | Gəncə AM-in yurisdiksiyası üzrə | Şəki AM-in yurisdiksiyası üzrə | Şirvan AM-in yurisdiksiyası üzrə | Naxçıvan MR Ali Məhkəməsinin yurisdiksiyası üzrə | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Mübahisə predmeti | 9 | - | - | - | - | - | 9 (39,1%) |
| Münasibətin xarakteri | 3 | 1 | 3 | 1 | 1 | 1 | 10 (43,5%) |
| Subyektiv tərkib | 2 | - | - | - | 1 | - | 3 (13%) |
| Digər əsas | 1 | - | - | - | - | - | 1 (4,4%) |
| Cəmi | 15 (65,1%) | 1 (4,4%) | 3 (13%) | 1 (4,4%) | 2 (8,7%) | 1 (4,4%) | 23 (100%) |

## 1.9. İcraatda olmuş digər işlər barədə məlumatlar

***Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlər üzrə statistik təhlil***

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 372 (100%) | 416 (100%) | +11,8% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 39 (10,5%) | 49 (11,8%) | +25,6% |
| Hesabat dövründə daxil olan işlər | 333 (89,5%) | 367 (88,2%) | +10,2% |
| Yekunlaşdırılmış işlər | 323 (86,8%) | 378 (90,9%) | +17% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 49 (13,2%) | 38 (9,1%) | -22% |

***Yekunlaşdırılmış işlər üzrə qətnamələrin tanınma və icra proseduruna görə təhlili:***

| İşlərin növü | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Xarici məhkəmələrin qətnamələrinin tanınması | 277 (89,4%) | 324 (85,7%) | +16,7% |
| Xarici məhkəmələrin qətnamələrinin icrası | - | - | - |
| Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası | 46 (10,6%) | 54 (14,3%) | +17,4% |

***Yekunlaşdırılmış işlər üzrə mübahisənin kateqoriyasına görə təhlili:***

| Tanınması üçün müraciət edilən qətnamənin mahiyyəti | İşlərin sayı |
|---|---|
| Nikahın pozulması | 338 (89,4%) |
| Aliment tələbi | 11 (2,9%) |
| Uşağın yaşayış yerinin müəyyən edilməsi | 5 (1,3%) |
| Uşaqla ünsiyyət qaydasının müəyyən edilməsi | 3 (0,9%) |
| Övladlığa götürmə | 2 (0,5%) |
| Adın dəyişdirilməsi | 2 (0,5%) |
| Pul vəsaitinin tutulması | 16 (4,2%) |
| Vərəsəlik şəhadətnaməsinin verilməsi | 1 (0,3%) |
| Cəmi | 378 (100%) |

***Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlərin nəticələrinin təhlili***




**Tanınmadan imtina əsasları:**

**A)** *Tanınması üçün müraciət edilən qətnamənin qanuni qüvvəyə mindiyi andan 3 ildən çox müddət keçməsi – 7 iş*

**B)** *Tanınması üçün müraciət edilən qətnamənin qanuni qüvvəsini almaması – 2 iş*

**C)** *işin Azərbaycan Respublikası məhkəməsinin müstəsna səlahiyyətinə aid olması – 5 iş*

**D)** *Tanınmanın qanunvericiliyə zidd olması – 2 iş*

***Mülki işlər üzrə Plenuma müraciətlər üzrə ümumi məlumat***

| Müraciətin növü | Cəmi icraat | | Artıb-azalma faizləri | Yekunlaşdırılmış | | Artıb-azalma faizləri |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | | 2024 | 2025 | |
| Əlavə kassasiya şikayətləri | 269 | 291 | +8,2% | 250 | 269 | +7,3% |
| Yeni açılmış hallar üzrə icraatla bağlı ərizələr | 77 | 73 | -5,2% | 72 | 64 | -11,1% |
| İşdə iştiraka cəlb edilməyən, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri | 23 | 12 | -47,8% | 21 | 12 | -42,8% |
| Cəmi | 369 | 376 | +1,9% | 343 | 345 | +1,7% |

***Mülki işlər üzrə Plenuma müraciətlərə baxılma nəticələrinin təhlili***

| Müraciətin növü | Cəmi yekunlaşdırılmış | | Rədd edilmiş | | Plenum baxışına çıxarılmış | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 |
| Əlavə kassasiya şikayətləri | 250 | 269 | 249 | 268 | 1 | 1 |
| Yeni açılmış hallar üzrə icraatla bağlı ərizələr | 72 | 64 | 70 | 62 | 2 | 2 |
| İşdə iştiraka cəlb edilməyən, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri | 21 | 12 | 21 | 12 | - | - |
| Cəmi | 343 | 345 | 340 | 342 | 3 | 3 |

***Apellyasiya instansiyası məhkəmələrindən daxil olmuş etirazlarla bağlı məlumatlar***

Hesabat dövründə Mülki kollegiyaya apellyasiya instansiyası məhkəməsinin bütün məhkəmə tərkiblərinə qarşı etirazla bağlı cəmi 1 müraciət daxil olmuşdur.

| Etirazın verildiyi apellyasiya məhkəməsi | Etirazın əsası | Etirazın həlli |
|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | İddianın həmin məhkəməyə qarşı qaldırılması | Etiraz təmin edilmiş, iş baxılması üçün Sumqayıt Apellyasiya Məhkəməsinə verilmiş |

## 1.10. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları

***Vahid məhkəmə təcrübəsini müəyyən edən qərarlar (★★★ statuslu qərarlar)***

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|---|
| 1 | Müqavilə münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-445/2025<br>2[102]-2697/2025 | 02.06.2025<br>10.09.2025 |
| 2 | Əmək münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-415/2025<br>2[102]-669/2025<br>2[102]-2525/2025 | 26.02.2025<br>10.04.2025<br>01.10.2025 |
| 3 | Mülkiyyət hüququnun müdafiəsi ilə bağlı yaranan mübahisələr üzrə | 2[102]-233/2025<br>2[102]-510/2025<br>2[102]-789/2025<br>2[102]-1109/2025<br>2[102]-1116/2025<br>2[102]-1067/2025<br>2[102]-1870/2025 | 11.02.2025<br>11.03.2025<br>08.04.2025<br>13.05.2025<br>22.04.2025<br>06.05.2025<br>02.07.2025 |
| 4 | Vərəsəlik münasibətlərindən yaranan mübahisələr üzrə | 2[102]-766/2025<br>2[102]-2739/2025 | 25.04.2025<br>21.10.2025 |
| 5 | Müəlliflik hüququ və əlaqəli hüquqların realizəsi ilə bağlı mübahisələr üzrə | 2[102]-2856/2025 | 04.11.2025 |
| 6 | Prosessual məsələlər üzrə | 2[102]-385/2025<br>2[102]-188/2025<br>2[102]-3152/2025<br>2[102]-3376/2025 | 17.01.2025<br>21.01.2025<br>21.10.2025<br>23.10.2025 |
| Cəmi – 19 | | | |

## 1.11. Dövlət rüsumları barədə məlumatlar



AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# II BÖLMƏ

# CİNAYƏT KOLLEGİYASI

02

## 2. Ali Məhkəmənin Cinayət kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyası (bundan sonra- Cinayət kollegiyası) tərəfindən 2025-ci ildə hüququn tətbiqi sahəsində vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" Ali Məhkəmənin Plenum (bundan sonra – Plenum) qərarının layihəsi hazırlanaraq, Plenumun 2025-ci il 4 iyul tarixli 11 nömrəli qərarı qəbul edilmişdir.

Həmçinin, Plenum qərarlarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilərək "Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Respublikası Ali Məhkəməsi Plenumunun 2005-ci il 27 may tarixli 2 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2025-ci il 4 aprel tarixli 8 nömrəli qərarı qəbul edilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 30 iyun tarixli 4 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2025-ci il 4 aprel tarixli 9 nömrəli qərarı qəbul edilmişdir.

Daha sonra, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Müttəhimin müdafiə hüququnu təmin edən qanunların məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 1994-cü il 2 dekabr tarixli 6 nömrəli və "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında" 1996-cı il 27 dekabr tarixli 5 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının qüvvədən düşmüş hesab edilməsi ilə bağlı 2025-ci il 4 iyul tarixli 12 nömrəli qərarı qəbul edilmişdir.

Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsinin təfsiri ilə bağlı mübahisəli hüquqi məsələ ilə əlaqədar hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair 2025-ci il 31 oktyabr tarixli 2 nömrəli qərarı qəbul edilmişdir.

Cinayət kollegiyasının hakimi İlqar Cəfərovun məsul olduğu "2024-cü ilin ikinci yarımilliyində məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətinin uzadılması haqqında təqdimatlara baxılması təcrübəsinin ümumiləşdirilməsi" mövzusu üzrə;

Cinayət kollegiyasının hakimi Ələsgər Novruzovun məsul olduğu "2023-cü ildə məhkəmələr tərəfindən baxılmış cinayət işləri üzrə verilmiş mülki iddiaların həlli zamanı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirilməsi" mövzusu üzrə Məhkəmə təcrübəsinin təhlili şöbəsi tərəfindən ümumiləşdirmə aparılmışdır.

Hesabat dövrü ərzində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş aşağıdakı 9 məsələ üzrə yazılı mülahizələr və mütəxəssis rəyi verilmişdir:

- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 26.3-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin sorğusu üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəza təyin edilərkən cəzanın aşağı həddi ilə bağlı törədilmiş əmələ görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, yoxsa ərazisində cinayət törədilmiş xarici dövlətin cinayət qanunvericiliyinin tətbiq edilməli olması ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.5-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi hüquqi müəyyənlik prinsipi, Konstitusiyanın 80-ci maddəsi və Cinayət Məcəlləsinin 12.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin sanksiyalarında nəzərdə tutulmuş əlavə cəzaların hansı əsas cəzalara əlavə olaraq təyin edilməsi ilə bağlı həmin normaların Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin “Qeyd” hissələrində şəxsin cinayət məsuliyyətindən əməllərində başqa cinayət əməlinin tərkibi olmadığı halda azad edilməsini nəzərdə tutan müddəanın şərh edilməsi ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 21 və 522-ci maddələrinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5, 58 və 83.1-1-ci maddələri, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi, 71-ci maddəsinin VII hissəsi, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi baxımından əlaqəli şəkildə şərh edilməsi ilə bağlı Bakı Ağır Cinayətlər Məhkəməsinin müraciəti üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsində nəzərdə tutulmuş “cinayət törədilərkən istifadə etdiyi” anlayışının həmin Məcəllənin 27, 28, 29-cu maddələri ilə, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş “cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı” anlayışının Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsi ilə əlaqəli şəkildə, habelə Cinayət Məcəlləsinin 99-2-ci maddəsində nəzərdə tutulmuş “cinayət törətmiş şəxsə məxsus olan digər əmlak” anlayışının şərh olunması ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu üzrə yazılı mülahizə;

- Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsində nəzərdə tutulmuş hallarda hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarlarından zərərçəkmiş şəxslər tərəfindən apellyasiya və ya kassasiya şikayəti verilə bilməsinin mümkünlüyü barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 520.7-ci maddəsinin müddəalarının şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 211.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və həmin Məcəllənin 218.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunun müraciəti üzrə yazılı mülahizə;
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 455.0.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin (Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı) I hissəsinə, 71-ci maddəsinin (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) I, II, VIII və X hissələrinə, 127-ci maddəsinin (Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri) II və IV hissələrinə, 130-cu maddəsinin (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi) IX hissəsinə və 149-cu maddəsinin (Normativ hüquqi aktlar) I, III və VII hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) müraciəti üzrə yazılı mülahizə.

Cinayət kollegiyasının hakimləri 2025-ci ildə Ali Məhkəmənin qanunvericiliyin təkmilləşdirilməsi üzrə fəaliyyətində iştirak etmişlər.

Belə ki, 2025-ci ildə müxtəlif dövlət orqanlarından göndərilmiş qanunvericilik aktlarına dəyişikliklərin edilməsi haqqında aşağıdakı layihələr və təkliflər üzrə Cinayət kollegiyasında müzakirələr aparılaraq, Ali Məhkəmənin müvafiq struktur bölmələri ilə birgə rəylər və təkliflər hazırlanmışdır:

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsində,
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində,
- Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində,
- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində,
- Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində,
- "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda,
- "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə.

Cinayət kollegiyasının hakimləri 2025-ci ildə təşkil olunmuş müxtəlif konfranslarda, görüşlərdə, təlim üzrə tədbirlərdə, Ali Məhkəmənin, ümumiyyətlə məhkəmələrin, hakimlərin fəaliyyətinə aid digər məsələlərin həyata keçirilməsində iştirak etmişlər:

- Cinayət kollegiyasının sədri Hafiz Nəsibovun sədrliyi ilə birinci instansiya və apellyasiya instansiyası məhkəmələrinin hakimləri ilə mütəmadi aylıq onlayn konfrans iclaslar keçirilmişdir;
- 2025-ci ilin 12-14 mart tarixlərində Cinayət kollegiyasının sədri Hafiz Nəsibovun Gürcüstana səfəri təşkil olunmuş, səfər zamanı Gürcüstan Ali Məhkəməsinin Cinayət Palatasının sədri və üzvləri ilə məhkəmə islahatları, mövcud məhkəmə

praktikası və bu sahədə aktual məsələlər, o cümlədən qətimkan tədbirlərinin tətbiqi sahəsində fikir mübadiləsi aparılmışdır;

- 2025-ci ilin 15-20 dekabr tarixlərində Türkiyə Respublikasının Ali Məhkəməsi (Yargıtay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Cinayət kollegiyasının sədri Hafiz Nəsibovun başçılıq etdiyi, Ali Məhkəmənin hakimləri Teyyub Muxtarov və Zaur Hüseynov, apellyasiya və birinci instansiya məhkəmələrinin hakimlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olmuş, səfər çərçivəsində nümayəndə heyəti cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər, nüfuz alveri (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə), cəza siyasəti və güzəştli cinayət-hüquqi institutlar və hüququn digər sahələri ilə bağlı məhkəmə təcrübəsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparmışlar;
- Cinayət kollegiyasının sədri Hafiz Nəsibov tərəfindən 5 dekabr 2025-ci il tarixində Qazaxıstan Respublikasının hakimliyə namizədləri üçün “Şəxsiyyət əleyhinə cinayətlər” mövzusunda təlim keçirilmişdir;

Hakim İlkin Rəcəbov üzvü olduğu Avropa Hakimlərinin Məşvərətçi Şurası (CCJE) tərəfindən hazırlanaraq 14 noyabr 2025-ci il tarixdə qəbul edilmiş 28 nömrəli “Ədalətin təmin edilməsi üçün hakim rifahının əhəmiyyəti” başlıqlı Rəylə bağlı Azərbaycan Respublikasına aid suallar üzrə cavablar hazırlanmış, son mətn üzrə təkliflər verilmişdir;

- Hüquq əməkdaşlığı üzrə Avropa Komitəsi (CDCJ) tərəfindən hazırlanaraq qəbul edilmiş “Hakimlərin müstəqilliyi və bitərəfliyinin gücləndirilməsi üzrə Avropa Şurasının Fəaliyyət Planı” (Sofiya Fəaliyyət Planı) başlıqlı sənədin Azərbaycan Respublikasına aid suallar üzrə cavablar hazırlanmış, son mətn üzrə təkliflər verilmişdir;
- 14-15 aprel 2025-ci il tarixlərdə (UNODC) BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının (UNCAC) Tətbiqinin Təftişi Mexanizmi üzrə ilkin distant təlim kursunda iştirak etmiş;
- 12–13 iyun 2025-ci il tarixlərdə Avstriya Respublikasının Vyana şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının (UNCAC) Tətbiqinin Təftişi Mexanizminin ikinci dövrəsində iştirak edən əlaqələndirici şəxslər və hökumət ekspertləri üçün keçirdiyi təlimdə iştirak etmiş;
- 16–20 iyun 2025-ci il tarixlərdə Avstriya Respublikasının Vyana şəhərində (UNODC) BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının (UNCAC) Tətbiqinin Təftişi Mexanizmi üzrə İcraya Nəzarət Qrupunun 16-cı iclasında iştirak etmiş;
- 7, 8 və 10 oktyabr 2025-ci il tarixlərdə (UNODC) BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının  Tərəf Dövlətlər Konfransının cari ilin dekabr ayında Qətər Dövlətində keçirilməsi planlaşdırılan iclası çərçivəsində “Korrupsiyanın qarşısının alınması və mübarizədə beynəlxalq əməkdaşlığın, texniki yardımın, potensialın yaradılmasının rolunun gücləndirilməsi və təhlükəsiz, mühafizə edilən və etibarlı süni intellekt sistemlərinin verdiyi fürsətlərdən yararlanılması” adlı Doha Bəyannaməsinin layihəsinin müzakirəsi üzrə distant iclasda iştirak etmiş;
- 14 noyabr 2025-ci il tarixdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) Avropa Kiberədalət Şəbəkəsi (ECN) tərəfindən keçirilmiş

"Cinayət ədalət mühakiməsi və süni intellekt" mövzusunda distant seminarda iştirak etmişdir.

Hakim Ələsgər Novruzov  Azərbaycan Respublikası Vəkillər Kollegiyasının İxtisas komissiyasının üzvü kimi vəkilliyə qəbulla bağlı ixtisas imtahanlarının yazılı test və şifahi müsahibə mərhələlərində iştirak etmiş;

- Azərbaycan Respublikası Ali Məhkəməsində keçirilmiş "Açıq qapı" günü silsilə tədbirində iştirak etmiş;
- 4 iyul 2025-ci il tarixində birinci və apellyasiya məhkəmələrinin hakimləri üçün "Cinayət işləri üzrə məhkəmə qərarlarının tərtib edilməsinin xüsusiyyətləri" mövzusunda, 24 oktyabr 2025-ci il tarixində birinci və apellyasiya məhkəmələrinin hakimləri üçün "Ayrı-ayrı kateqoriyalara aid cinayətlərə baxılmasının xüsusiyyətləri", "Cinayət prosesində mülki iddia və xüsusi müsadirənin tətbiqi məsələləri" mövzusunda distant formada mühazirə keçmişdir.

Hakim Teyyub Muxtarov 17 fevral 2025-ci il tarixində Gəncə Apellyasiya Məhkəməsinin ilin yekunlarına dair hesabatla bağlı iclasında iştirak etmişdir.

Hakim Rəşad Abdulov 2025-ci ilin 29-30 oktyabr tarixlərində Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) tərəfindən "Qanunun aliliyi və məhkəmə hakimiyyətinin müstəqilliyi" mövzusunda keçirilən konfransda iştirak etmişdir.

Hakim Nazim Mövsümov 23-24 may 2025-ci il tarixlərdə "Konstitusiya və suverenlik ili"nə həsr edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti"  mövzusunda Beynəlxalq Elmi Praktiki Konfransda iştirak etmişdir.

Hakim İlqar Cəfərov Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının 10 dekabr 2025-ci il tarixli növbəti iclasında iştirak etmişdir.

Cinayət kollegiyasının hakimləri həmçinin, 28 fevral 2025-ci il tarixdə Bakıda keçirilmiş Azərbaycan hakimlərinin I Forumunda və 12-17 oktyabr 2025-ci il tarixlərdə Bakıda keçirilmiş Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası ilə əlaqədar tədbirlərdə iştirak etmişlər.

2025-ci il ərzində Cinayət kollegiyanın sədri tərəfindən 162 nəfər vətəndaşın qəbulu həyata keçirilmişdir.

## 2.1. İcraatda olmuş işlər üzrə ümumi məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasının icraatında olmuş işlər, o cümlədən ötən ildən qalıq keçmiş işlər, il ərzində daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti ilə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

***İşlər üzrə:***

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 3688 (100%) | 3556 (100%) | -132 (-3,6%) |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 920 (25%) | 889 (25%) | -31 (-3,4%) |
| Hesabat dövründə daxil olan işlər | 2768 (75%) | 2667 (75%) | -101 (-3,6%) |
| Baxılmış işlər | 2611 (70,8%) | 2677 (75,3%) | +66 (+2,5%) |
| Baxışdan çıxarılan işlər | 188 (5,1%) | 186 (5,2%) | -2 (-1,1%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 889 (24,1%) | 693 (19,5%) | -196 (-22%) |



***Şəxslər üzrə:***

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 3988 (100%) | 3856 (100%) | -132 (-3,3%) |
| Ötən hesabat dövründən qalıq kecən işlər | 1017 (25,5%) | 920 (23,9%) | -97 (-4,0%) |
| Hesabat dövründə daxil olan işlər | 2971 (74,5%) | 2936 (76,1%) | -35 (-3,1%) |
| Baxılmış işlər | 2855 (71,6%) | 2902 (75,3%) | +47 (+1,6%) |
| Baxışdan çıxarılan işlər | 213 (5,3%) | 201 (5,2%) | -12 (-5,6%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 920 (23%) | 753 (19,5%) | -167 (-18,2%) |




## 2.2. İcraatda olmuş işlər üzrə icraatın növlərinə (indekslər) dair məlumat

***İşlər üzrə:***

| İcraatın növü | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 3427 (92,95%) | 3270 (92%) | -4,6% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 259 (7%) | 276 (7,7%) | +6,6% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | 2 (0,05%) | 9 (0,27%) | 3,5 dəfə artım |
| Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə materiallar üzrə icraat (23 indeksi üzrə) | - | 1 (0,03%) | - |
| Cəmi | 3688 (100%) | 3556 (100%) | -3,6% |

***Şəxslər üzrə:***

| İcraatın növü | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cinayət işləri (1 və 1-1 indeks) | 3727 (93,45%) | 3570 (92,6%) | -4,2% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 259 (6,5%) | 276 (7,15%) | +6,6% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | 2 (0,05%) | 9 (0,23%) | 3,5 dəfə artım |
| Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə materiallar üzrə icraat (23 indeksi üzrə) | - | 1 (0,02%) | - |
| Cəmi | 3988 (100%) | 3856 (100%) | -3,3% |

## 2.3. Baxılmış müraciətlərin növlərinə dair məlumat

Hesabat dövründə Cinayət kollegiyasında baxılan işlərin müraciət edən subyektə görə bölgüsü aşağıdakı kimi olmuşdur:

| İcraatın növü | Kassasiya protesti əsasında[1] | | Kassasiya şikayəti əsasında | | Cəmi | |
|---|---|---|---|---|---|---|
| | iş | şəxs | iş | şəxs | iş | şəxs |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 420 16,9% | 441 17,7% | 2066 83,1% | 2270 82,3% | 2486 100% | 2711 100% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 26 14,1% | 26 14,1% | 158 85,9% | 158 85,9% | 184 100% | 184 100% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeksi üzrə) | 2 28,6% | 2 28,6% | 5 71,4% | 5 71,4% | 7 100% | 7 100% |
| Cəmi | 448 16,7% | 469 16,2% | 2229 83,3% | 2433 83,8% | 2677 100% | 2902 100% |

[1] Kassasiya protestlərinin sayı ittiham tərəfi üzrə bütün müraciətlərin sayını əhatə edir.

***İşlər üzrə:***




***Şəxslər üzrə:***




## 2.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında baxılmış işlərin nəticələri aşağıdakı kimi olmuşdur:

***İşlər üzrə:***

| Kassasiya baxışının nəticələri | 2024 | 2025 | Faiz göstəricilərinin müqayisəsi |
|---|---|---|---|
| Məhkəmə aktının dəyişdirilmədən saxlanılması | 2198 (84,2%) | 2203 (82,3%) | -1,9% |
| Məhkəmə aktının dəyişdirilməsi | 233 (8,9%) | 341 (12,7%) | +3,8% |
| Məhkəmə aktının ləğv edilməsi | 180 (6,9%) | 133 (5%) | -1,9% |
| Cəmi | 2611 (100%) | 2677 (100%) | - |

***Şəxslər üzrə:***

| Kassasiya baxışının nəticələri | 2024 | 2025 | Faiz göstəricilərinin müqayisəsi |
|---|---|---|---|
| Məhkəmə aktının dəyişdirilmədən saxlanılması | 2379 (83,3%) | 2372 (81,8%) | -1,5% |
| Məhkəmə aktının dəyişdirilməsi | 278 (9,7%) | 373 (12,8%) | +3,1% |
| Məhkəmə aktının ləğv edilməsi | 198 (7%) | 158 (5,4%) | -1,6% |
| Cəmi | 2855 (100%) | 2902 (100%) | - |

## 2.5. Baxışdan çıxarılmış, o cümlədən geri götürülmüş müraciətlərə dair məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında mahiyyəti üzrə baxılmayan işlərə dair məlumatlar aşağıdakı cədvəldə əks etdirilmişdir:

| İcraatın növü | CPM-nin 418.3-cü maddəsinə əsasən geri qaytarılmış | | Kassasiya müraciəti geri götürülmüş | |
|---|---|---|---|---|
| | iş | şəxs | iş | şəxs |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 23 | 26 | 145 | 157 |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri üzrə) | 3 | 3 | 15 | 15 |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 indeks) | - | - | - | - |
| CƏMİ | 26 | 29 | 160 | 172 |

***Kassasiya şikayətini və ya protestini ilkin öyrənən hakim tərəfindən işin apellyasiya məhkəməsinə geri qaytarılması əsasları***



***Mümkünlüyü yoxlanılmadan göndərilmiş kassasiya müraciətlərinin apellyasiya instansiyası məhkəmələri üzrə bölgüsü***[1]




Kassasiya müraciəti (cəmi 160 iş üzrə) geri götürülmüşdür:




## 2.6. Məhkəmə aidiyyətinin müəyyən edilməsinə dair müraciətlərlə bağlı məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasına müxtəlif apellyasiya instansiyası məhkəmələrinin yurisdiksiyasında fəaliyyət göstərən məhkəmələr arasında yaranmış fikir ayrılığının həll edilməsi ilə əlaqədar apellyasiya məhkəmələrinin sədrləri tərəfindən 15 müraciət daxil olmuşdur.

[1] Apellyasiya instansiyası məhkəmələrinin müraciəti ilə qaytarılmış 5 iş təhlil zamanı nəzərə alınmamışdır.

## *Müraciətlərin apellyasiya məhkəmələri üzrə bölgüsü:*




- Bakı AM 4 iş (26,7%)
- Sumqayıt AM 3 iş (20%)
- Şəki AM 1 iş (6,7%)
- Şirvan AM 5 iş (33,3%)
- Gəncə AM 2 iş (13,3%)

| İllər | Ərazi üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı müraciətlər | | | Predmet üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı müraciətlər |
|---|---|---|---|---|
| | ümumi məhkəmələr | ağır cinayətlər məhkəmələri | hərbi məhkəmələr | |
| 2024 | 6 | 3 | – | – |
| 2025 | 13 | 2 | – | – |

### *Məhkəmələr arasında aidiyyətlə bağlı fikir ayrılığına səbəb olmuş əsaslar:*



## 2.7. Kassasiya müraciətlərinə baxılması nəticələrinə dair ümumi məlumatlar

Hesabat dövründə Cinayət kollegiyasında mahiyyəti üzrə baxılmaqla yekunlaşdırılmış işlərə dair nəticələr aşağıdakı kimi olmuşdur:

### *İşlərə görə:*

| İcraatın növü | Kassasiya protesti | | | Kassasiya şikayəti | | | Cəmi | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi |
| Cinayət işləri (1 və 1-1 indeksləri üzrə) | 337<br>80,2% | 83<br>19,8% | 420<br>100% | 1686<br>81,6% | 380<br>18,4% | 2066<br>100% | 2023<br>81,4% | 463<br>18,6% | 2486<br>100% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar | 25<br>96,1% | 1<br>3,9% | 26<br>100% | 149<br>94,3% | 9<br>5,7% | 158<br>100% | 174<br>94,6% | 10<br>5.4% | 184<br>100% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması | 1<br>50% | 1<br>50% | 2<br>100% | 5<br>100% | - | 5<br>100% | 6<br>85,7% | 1<br>14,3% | 7<br>100% |
| Cəmi | 363<br>81% | 85<br>19% | 448<br>100% | 1840<br>82,5% | 389<br>17,5% | 2229<br>100% | 2203<br>82,3% | 474<br>17,7% | 2677<br>100% |

### *Şəxslərə görə:*

| İcraatın növü | Kassasiya protesti | | | Kassasiya şikayəti | | | Cəmi | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi | Təmin edilməmiş | Təmin edilmiş (tam və ya qismən) | Cəmi |
| Cinayət işləri | 358<br>81,2% | 83<br>18,8% | 441<br>100% | 1834<br>80,8% | 436<br>19,2% | 2270<br>100% | 2192<br>80,8% | 519<br>19,2% | 2711<br>100% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar | 25<br>96,1% | 1<br>3,9% | 26<br>100% | 149<br>94,3% | 9<br>5,7% | 158<br>100% | 174<br>94,6% | 10<br>5,4% | 184<br>100% |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması | 1<br>50% | 1<br>50% | 2<br>100% | 5<br>100% | - | 5<br>100% | 6<br>85,7% | 1<br>14,3% | 7<br>100% |
| Cəmi | 384<br>81,9% | 85<br>18,1% | 469<br>100% | 1988<br>81,7% | 445<br>18,3% | 2433<br>100% | 2372<br>81,7% | 530<br>18,3% | 2902<br>100% |

## 2.8. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə təhlili[1]

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 1360 | 1410 | +3,7% | 1421 | 1480 | +4,2% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 372 | 395 | +6,2% | 333 | 427 | +28% |
| Gəncə Apellyasiya Məhkəməsi | 372 | 222 | -40% | 256 | 224 | -13% |
| Şəki Apellyasiya Məhkəməsi | 276 | 161 | -42% | 265 | 191 | -62% |
| Şirvan Apellyasiya Məhkəməsi | 507 | 460 | -9,3% | 498 | 526 | +98% |
| Naxçıvan MR Ali Məhkəməsi | 21 | 19 | -9,5% | 26 | 15 | -42% |
| Cəmi | 2768 | 2667 | -3,6% | 2799 | 2863 | +2,3% |

### Daxil olan işlər kütləsi




### Həll edilən işlər kütləsi




[1] Təhlil iş sayına görə aparılmışdır.

## 2.9. Baxılmış işlərin indekslərinə görə apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar[1]

| İllər | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Cinayət işləri (1 və 1-1 indeksləri)** | | | | | | | |
| 2024 | 1333 | 329 | 261 | 504 | 212 | 25 | 2664 |
| 2025 | 1323 | 238 | 423 | 534 | 176 | 17 | 2711 |
| Artıb-azalma faizləri | +0,8% | -27,7% | +62,1% | +6% | -17% | -32% | +1,8% |
| **Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında materiallar (7 və 7-1 indeksləri)** | | | | | | | |
| 2024 | 119 | 4 | 6 | 12 | 48 | - | 189 |
| 2025 | 150 | 4 | 5 | 7 | 17 | 1 | 184 |
| Artıb-azalma faizləri | +26,1% | - | -16,7% | -41,7% | -64,6% | - | -2,6% |
| **Xarici dövlətlərin məhkəmə qərarlarının tanınması (9 və 9-1 indeksləri)** | | | | | | | |
| 2024 | - | 1 | - | 1 | - | - | 2 |
| 2025 | 3 | 1 | - | 2 | 1 | - | 7 |
| Artıb-azalma faizləri | - | - | - | +100% | - | - | 2,5 dəfə artım |
| **Cəmi** | | | | | | | |
| 2024 | 1452 | 334 | 267 | 517 | 260 | 25 | 2855 |
| 2025 | 1476 | 243 | 428 | 543 | 194 | 18 | 2902 |
| Artıb-azalma faizləri | +1,7% | -27,2% | +60,3% | +5% | -25,4% | -28% | +1,6% |

[1] Təhlil şəxs sayına görə aparılmışdır.

## 2.10. Baxılmış cinayət işlərinin kateqoriyalarına görə təhlili[1]

| İşlərin kateqoriyaları (1 və 1-1 indeksləri üzrə) | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxcıvan MR AM Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 116<br>46,5% | 34<br>13,7% | 41<br>16,5% | 18<br>7,2% | 39<br>15,7% | 1<br>0,4% | 249<br>100% |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 70<br>60,9% | 12<br>10,4% | 12<br>10,4% | 5<br>4,4% | 16<br>13,9% | - | 115<br>100% |
| Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | 14<br>42,4% | 3<br>9,1% | 5<br>15,2% | 2<br>6,1% | 9<br>27,2% | - | 33<br>100% |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | 13<br>76,5% | - | 1<br>5,9% | - | 3<br>17,6% | - | 17<br>100% |
| Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər | 2<br>50% | - | - | - | 2<br>50% | - | 4<br>100% |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 338<br>61,3% | 45<br>8,3% | 59<br>10,7% | 38<br>6,9% | 68<br>12,3% | 3<br>0,5% | 551<br>100% |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 40<br>54,1% | 4<br>5,4% | 4<br>5,4% | 3<br>4,1% | 22<br>29,6% | 1<br>1,4% | 74<br>100% |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | 55<br>41% | 25<br>18,7% | 18<br>13,4% | 14<br>10,4% | 21<br>15,7% | 1<br>0,8% | 134<br>100% |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | 551<br>44,4% | 67<br>5,4% | 249<br>20% | 72<br>5,8% | 300<br>24,2% | 3<br>0,2% | 1242<br>100% |
| İctimai mənəviyyat əleyhinə cinayətlər | - | - | 1<br>100% | - | - | - | 1<br>100% |
| Ekoloji cinayətlər | 3<br>100% | - | - | - | - | - | 3<br>100% |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 43<br>43,3% | 9<br>9,1% | 18<br>18,2% | 9<br>9,1% | 18<br>18,2% | 2<br>2,1% | 99<br>100% |
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | 10<br>66,7% | 2<br>13,3% | 3<br>20% | - | - | - | 15<br>100% |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 22<br>64,7% | 3<br>8,8% | 5<br>14,7% | 4<br>11,8% | - | - | 34<br>100% |
| Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər | 35<br>46,7% | 9<br>12% | 6<br>8% | 6<br>8% | 19<br>25,3% | - | 75<br>100% |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 5<br>45,5% | - | - | - | 6<br>54,5% | - | 11<br>100% |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | 7<br>13% | 25<br>46,2% | 1<br>1,8% | 3<br>5,6% | 13<br>24,1% | 5<br>9,3% | 54<br>100% |
| Yekunu | 1324<br>48,8% | 238<br>8,8% | 423<br>15,6% | 174<br>6,4% | 536<br>19,8% | 16<br>0,6% | 2711<br>100% |

[1] Təhlil şəxs sayına görə aparılmışdır.

***Cinayət işlərinin növlərinin ümumi işlərə münasibətdə faizlə göstəriciləri və ötən ilin müvafiq göstəriciləri ilə müqayisəli təhlili***



## 2.11. Baxılmış cinayət işlərinin kateqoriyalar və nəticələr üzrə təhlili

Cinayət kollegiyası tərəfindən 2025-ci ildə baxılmış cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat materialları, xüsusi ittiham qaydasında şikayətlər üzrə icraat materiallarına, habelə hərbi məhkəmələrin yurisdiksiyasına aid işlərə dair məlumatlar həmin işləri məhkumların təqsirli bilindikləri cinayətlərin Cinayət Məcəlləsinin hansı fəsilində yerləşməsinə, yəni qəsd edilən obyektə görə qruplaşdırdıqda, aşağıdakı cədvəllərdə təsvir edildiyi kimi olmuşdur:

### *Şəxsiyyət əleyhinə olan cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir | Cəmi dəyişdirilmişdir | Cəmi baxılmışdır |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | | |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | Mad. 120-143 | 198/206 | 7/7 | 2/2 | 9/9 | 33/34 | 240/249 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | Mad. 144-148 | 83/97 | 3/4 | 1/1 | 4/5 | 7/13 | 94/115 |
| Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | Mad. 149-153 | 29/31 | - | - | - | 2/2 | 31/33 |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | Mad. 154-169 | 10/14 | - | - | - | 2/3 | 12/17 |
| Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər | Mad. 170-176 | 2/2 | - | - | - | 2/2 | 4/4 |
| Cəmi | | 322/350 | 10/11 | 3/3 | 13/14 | 46/54 | 381/418 |

### *İqtisadi sahədə cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir | Cəmi dəyişdirilmişdir | Cəmi baxılmışdır |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | | |
| Mülkiyyət əleyhinə olan cinayətlər | Mad. 177-189 | 389/428 | 44/57 | - | 44/57 | 63/66 | 496/551 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | Mad. 190-213 | 43/46 | 9/12 | - | 9/12 | 14/16 | 66/74 |
| Cəmi | | 432/474 | 53/69 | - | 53/69 | 77/82 | 562/625 |

## İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir | Cəmi dəyişdirilmişdir | Cəmi baxılmışdır |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | | |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | Mad. 214-233 | 96/109 | 4/4 | - | 4/4 | 17/21 | 117/134 |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | Mad. 234-241 | 975/1030 | 37/43 | 1/1 | 38/44 | 160/168 | 1173/1242 |
| İctimai mənəviyyat əleyhinə cinayətlər | Mad. 242-246 | - | - | - | - | 1/1 | 1/1 |
| Ekoloji cinayətlər | Mad. 247-261 | 3/3 | - | - | - | - | 3/3 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | Mad. 262-270 | 77/78 | 10/10 | - | 10/10 | 11/11 | 98/99 |
| Kompüter informasiyası sahəsində cinayətlər | Mad. 271-273 | - | - | - | - | - | - |
| Cəmi | | 1151/1220 | 51/57 | 1/1 | 52/58 | 189/201 | 1392/1479 |

## Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı) | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir | Cəmi dəyişdirilmişdir | Cəmi baxılmışdır |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | | |
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | Mad. 274-285 | 12/14 | - | - | - | 1/1 | 13/15 |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | Mad. 286-307 | 24/34 | - | - | - | - | 24/34 |
| Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər | Mad. 308-314 | 36/47 | 4/6 | - | 4/6 | 20/22 | 60/75 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | Mad. 315-326 | 11/11 | - | - | - | - | 11/11 |
| Cəmi | - | 83/106 | 4/6 | - | 4/6 | 21/23 | 108/135 |

*Hərbi xidmət əleyhinə olan cinayətlər*

| Cinayətin növləri | Azərbaycan Respublikası CM-nin fəsilləri üzrə maddələr | Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı) | Hökm və ya qərar ləğv edilmişdir | | Cəmi ləğv edilmişdir | Cəmi dəyişdirilmişdir | Cəmi baxılmışdır |
|---|---|---|---|---|---|---|---|
| | | | Yenidən baxılması üçün göndərilmişdir | İcraatına xitam verilmiş işlər | | | |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | Mad. 327-353 | 35/42 | - | - | - | 8/12 | 43/54 |
| Cəmi | - | 35/42 | - | - | - | 8/12 | 43/54 |

## 2.12. Hökmün icrası qaydasında baxılan işlərin apellyasiya məhkəmələri üzrə təhlili

| Müraciətlərin əsası | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə | 68<br>84 % | 2<br>2,5% | 1<br>1,2% | 6<br>7,4% | 3<br>3,7% | 1<br>1,2% | 81<br>100% |
| Xəstəliyə görə cəza çəkməkdən azad etmə | 3<br>100% | - | - | - | - | - | 3<br>100% |
| Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə | 1<br>100% | - | - | - | - | - | 1<br>100% |
| Cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi | 4<br>57,1% | - | 1<br>14,3% | 2<br>28,6% | - | - | 7<br>100% |
| Cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi | 29<br>78,4% | - | - | 8<br>21,6% | - | - | 37<br>100% |
| Məhkum barəsində amnistiya aktının tətbiqi ilə əlaqədar | - | - | - | - | 1<br>100% | - | 1<br>100% |
| Məhkumluğun vaxtından əvvəl götürülməsi | - | - | - | - | 1<br>100% | - | 1<br>100% |
| Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası zamanı şübhələrin və anlaşılmazlıqların həll edilməsi | 1<br>50% | - | 1<br>50% | - | - | - | 2<br>100% |
| Cəzaları icra edən müəssisə və ya orqanların təqdimatı əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə əlaqədar məsələlərin həll edilməsi | 18<br>85,7% | 2<br>9,5% | 1<br>4,8% | - | - | - | 21<br>100% |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Cinayət qanunvericiliyində edilmiş dəyişikliklərlə bağlı tənzimləmə[1]** | 7<br>100% | - | - | - | - | - | 7<br>100% |
| **Digər müraciətlər** | 19<br>82,7% | - | 1<br>4,3% | 1<br>4,3% | 2<br>8,7% | - | 23<br>100% |
| **Cəmi** | 150<br>81,5% | 4<br>2,2% | 5<br>2,8% | 17<br>9,2% | 7<br>3,8% | 1<br>0,5% | 184<br>100% |

## 2.13. Baxılmış işlərin nəticələrinin təhlili

Hesabat dövründə Cinayət kollegiyasında baxılmış işlərin nəticələri apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:

***Şəxslərə görə:***

| Məhkəmələr | Baxılmış işlərin cəmi | | Dəyişdirilmədən saxlanılmış | | Ləğv edilmiş | | Dəyişdirilmiş | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 |
| **Bakı Apellyasiya Məhkəməsi** | 1452<br>100% | 1476<br>100% | 1233<br>84,9% | 1222<br>82,8% | 95<br>6,5% | 98<br>6,6% | 124<br>8,5% | 156<br>10,6% |
| **Gəncə Apellyasiya Məhkəməsi** | 267<br>100% | 243<br>100% | 217<br>81,3% | 204<br>84% | 27<br>10,1% | 11<br>4,5% | 23<br>8,6% | 28<br>11,5% |
| **Sumqayıt Apellyasiya Məhkəməsi** | 334<br>100% | 428<br>100% | 267<br>80,2% | 331<br>77,3% | 14<br>4,2% | 12<br>2,8% | 53<br>15,9% | 85<br>19,9% |
| **Şirvan Apellyasiya Məhkəməsi** | 517<br>100% | 543<br>100% | 420<br>81,2% | 439<br>80,8% | 34<br>6,7% | 25<br>4,6% | 63<br>12,2% | 79<br>14,5% |
| **Şəki Apellyasiya Məhkəməsi** | 260<br>100% | 194<br>100% | 219<br>84,2% | 161<br>83% | 28<br>10,8% | 12<br>6,2% | 13<br>5% | 21<br>10,8% |
| **Naxçıvan MR Ali Məhkəməsi** | 25<br>100% | 18<br>100% | 23<br>92% | 15<br>83,3% | - | - | 2<br>8% | 3<br>16,7% |
| **Cəmi** | 2855<br>100% | 2902<br>100% | 2379<br>83,3% | 2372<br>81,8% | 198<br>7% | 158<br>5,4% | 278<br>9,7% | 372<br>12,8% |

## 2.14. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş kollegial qərarlar

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın tarixi |
|---|---|---|---|
| 1 | **Məhkum edilmiş şəxsə cəza təyini zamanı cinayət qanununun tətbiqi (Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsinin izahı)** | № 02/2025 | 31.10.2025 |
| | Cəmi - 1 | | |

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 234-cü maddəsində edilmiş dəyişikliklərlə bağlı cəzanın yeni normaya uyğunlaşdırılması, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında 11 iyun 2015-ci il tarixli, 7 nömrəli Qərarında dəyişikliklər edilməsi" haqqında 19 may 2023-cü il tarixli Qərarında nəzərdə tutulmuş halların tətbiq edilməsi ilə bağlı müraciətlər.

## 2.15. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)

***Ali Məhkəmənin sədrinin məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı qərarları***

| Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|
| 1-8/1-25/2025 | 27.01.2025 |
| 1-8/1-26/2025 | 27.01.2025 |
| 1-8/1-259/2025 | 19.03.2025 |
| 1-8/1-557/2025 | 29.04.2025 |
| 1-8/1-992/2025 | 30.06.2025 |
| 1-8/1-1109/2025 | 30.06.2025 |
| 1-8/1-1198/2025 | 14.07.2025 |
| Cəmi – 7 | |

***Cinayət kollegiyasında kassasiya qaydasında qəbul edilmiş qərarlar***

| Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|
| Əməlin Azərbaycan Respublikası CM-in 234.2-ci maddəsindən həmin Məcəllənin 234.1-ci maddəsinə tövsifi | 1(102)-371/2025 | 19.02.2025 |
| Yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxsin əməlinin CM-in 170.1-ci maddəsinə səhv tövsifi (ailə qanunvericiliyinin və digər əlaqəli qanunvericilik aktlarının müvafiq normaları ilə izah verilmişdir) | 1(102)-23/2025 | 28.01.2025 |
| Apellyasiya müraciətinin geri götürülməsinin hüquqi nəticələri | 1(102)-650/2025 | 20.02.2025 |
| Əməlin Azərbaycan Respublikası CM-in 126.1-ci maddəsindən həmin Məcəllənin 130.1-ci maddəsinə tövsifi | 1(102)-151/2025 | 24.01.2025 |
| Sübutların qiymətləndirilməsi | 1(102)-488/2025 | 24.01.2025 |
| İnsan alveri cinayəti üzrə ittihamı təşkil edən bir neçə əməlin hər biri müxtəlif vaxtlarda və müxtəlif hərəkətlərlə törədilmiş müstəqil cinayətlər olduğundan cinayətlərin çoxluğu kimi çıxış etməklə CM-in 144-1.2.2-ci maddəsinin nəzərdə tutduğu “cinayətlərin təkrar törədilməsi” əlamətinin təsir altına düşməsi, bu səbəbdən CM-in 144-1.2.1-ci maddəsinin tətbiqinin istisna edilməsi | 1(102)-1102/2025 | 02.05.2025 |

| | | |
|---|---|---|
| Məhkumun CM-in 312-1.1-ci maddəsi ilə təqsirli bilinməsinə dair müddəaların hökmdən xaric edilməsi | 1(102)-1139/2025 | 20.05.2025 |
| Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi | 1(102)-1258/2025 | 16.05.2025 |
| Əməlin Azərbaycan Respublikası CM-in 133.2.4-cü maddəsindən həmin Məcəllənin 133.2.6-cı maddəsinə tövsifi | 1(102)-2052/2025 | 28.08.2025 |
| CM-in 228.1-ci maddəsində nəzərdə tutulmuş cinayətin tərkib əlamətləri formal cəhətdən mövcud olsa da, həmin hərəkətlərilə o, şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirmədiyindən və zərər yetirmək təhlükəsi yaratmadığından əməllərin CM-in 14.2-ci maddəsinə əsasən ictimai təhlükəli sayılmayan az əhəmiyyətli əməllər kimi qiymətləndirilməsi | 1(102)-1633/2025 | 02.09.2025 |
| Xarici dövlətlərin məhkəmə qərarlarının tanınmasından imtina əsasları | 9(102)-3/2025 | 08.10.2025 |
| Cinayətlərin çoxluğu | 1(102)-2086/2025 | 26.11.2025 |
| Cəmi - 12 | | |

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# III BÖLMƏ

# İNZİBATİ KOLLEGİYA

03

## 3. Ali Məhkəmənin İnzibati kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Azərbaycan Respublikasının İnzibati kollegiyası (bundan sonra- İnzibati kollegiya) Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncam layihələri, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda„ Azərbaycan Respublikasının İnzibati Məcəlləsində, Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələrinin hazırlanmasında iştirak etmişdir.

2024-cü ildə inzibati məhkəmələrdə baxılmış diplom üzrə ixtisasının tanınması və ekvivalentlik haqqında şəhadətnamənin verilməsi tələbinə dair işlər üzrə və Məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla işlərə yenidən baxılması və bununla bağlı inzibati orqanların davranışı ilə əlaqədar 2024-cü ildə baxılmış inzibati işlərin məhkəmə təcrübəsinin ümumiləşdirilməsi aparılmışdır.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.2, 57 və 59-cu maddələrinin tətbiqi zamanı inzibati aktın formasına dair 13.03.2025-ci il tarixli 01/2025 nömrəli Qərardad qəbul edilmişdir.

2025-ci ildə qəbul edilmiş qərarlarla qanunvericiliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı çoxsaylı hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırılmış və 3 ədəd ★★★ nişanı, 1 ədəd ★★★★ nişanı ilə indeksləşdirilmiş məhkəmə qərarları qəbul edilərək, axtarış sisteminə daxil edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş 1 məsələ üzrə yazılı mülahizə verilmişdir.

2025-ci il 28 fevral tarixində Bakıda keçirilmiş Azərbaycan Hakimlərinin I Forumu çərçivəsində "İnzibati işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti, islahatlar və müasir çağırışlar" mövzusunda panel müzakirələr təşkil edilmişdir.

"Hakimliyə namizədlərin və hakimlərin tədrisində səmərəli fəaliyyətə görə" Ali Məhkəmənin hakimi Elşanə Vəliyeva, "Məhkəmə təcrübəsinin vahidliyinin formalaşmasına verdiyi töhfələrə görə" Ali Məhkəmənin hakimi Səyyad Kərimov "İlin hakimi" mükafatı ilə təltif olunmuşdur.

Məhkəmə təcrübəsinin təhlili şöbəsi ilə birlikdə inzibati orqanların qərar, hərəkət və hərəkətsizliyindən şikayət instansiyasına (yuxarı inzibati orqana) müraciət imkanına dair mexanizmlərin hüquqi və faktiki vəziyyətinin təhlili, məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla işlərə yenidən baxılması və bununla bağlı inzibati orqanların davranışı ilə əlaqədar 2024-cü ildə baxılmış inzibati işlərin məhkəmə təcrübəsinin ümumiləşdirilməsi aparılmış, 2024-cü ildə və 2025-ci ilin I yarımilliyində Bakı İnzibati Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlan dinlənilmişdir.

Kollegiyanın sədri 2025-ci ilin 3-5 fevral tarixlərində Keniya Respublikası Ali Məhkəməsinin sədri xanım Marta Koomenin dəvəti ilə Keniya Respublikasına, 6-7 may tarixlərində Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransında iştirak etmək məqsədilə Türkiyə Respublikasının Antalya şəhərinə, 7-9 noyabr tarixlərində Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin 60 illik yubileyinə həsr olunmuş tədbirdə

iştirak etmək məqsədilə Şimali Kiprə və 1-3 dekabr tarixlərində Vyetnam Sosialist Respublikasına təşkil edilmiş rəsmi səfərlərdə iştirak etmişdir.

Kollegiya sədri və hakimlər 2025-ci il 12-17 oktyabr tarixlərində Beynəlxalq Hakimlər Assosiasiyasının Bakı şəhərində keçirilən 67-ci illik iclasında iştirak etmişlər.

Kollegiya sədri və hakimlər 2025-ci il 31 oktyabr tarixində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda keçirilmiş konfransda iştirak etmişlər.

Kollegiyanın sədri tərəfindən 185 vətəndaşın qəbulu (25 qəbul) həyata keçirilmişdir.

## 3.1. İcraatda olmuş işlər barədə ümumi statistik məlumatlar

Hesabat dövründə İnzibati kollegiyanın icraatında olmuş işlər, o cümlədən qalıq keçmiş işlər, daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti hesabat dövrünə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 4438 | 5227 | +789 (+17,8%) |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 955 (21,5%) | 1034 (19,8%) | +79 (+8,3%) |
| Hesabat dövründə daxil olan işlər | 3483 (78,5%) | 4193 (80,2%) | +710 (+20,4%) |
| Yekunlaşdırılmış işlər | 3404 (76,7%) | 3246 (62,1%) | -158 (-4,6%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 1034 (23,3%) | 1981 (37,9%) | +947 (+91,6%) |



## 3.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili

İl ərzində icraatda olan inzibati işlərin icraatların növü üzrə (indeks üzrə) bölgüsü aşağıdakı qaydada olmuşdur:

| İcraatın növü | Cəmi icraat | | | İşlərin yekunlaşdırılma göstəriciləri | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| İnzibati işlər (iddia icraatı) | 4438 (100%) | 5227 (100%) | +17,8% | 3404 (76,7%) | 3246 (62,1%) | -4,6% |
| Onlardan: qərar | 3251 (73,3%) | 3735 (71,48%) | +14,9% | 2518 (78,2%) | 2101 (56,3%) | -16,6% |
| Onlardan: qərardad | 856 (19,3%) | 875 (16,7%) | +2,2% | 645 (75,3%) | 601 (68,7%) | -6,8% |
| Müvəqqəti xarakterli müdafiə tədbiri barədə ərizə üzrə icraat | 258 (5,7%) | 560 (10,7% | +117% | 176 (68,2%) | 492 (87,9%) | +179% |
| Apellyasiya instansiya məhkəməsinin birinci instansiya məhkəməsi qismində baxdığı işlər üzrə icraat | 53 (1,2%) | 38 (0,72%) | -28,3% | 48 (90,5%) | 35 (92,1%) | -27,1% |
| Aidiyyət mübahisələri | 13 (0,28%) | 9 (0,2%) | -30,8% | 13 (100%) | 8 (88,9%) | -38,4% |
| Məhkəmə qərarlarının icrası qaydasında icraat | 6 (0,2%) | 9 (0,2%) | +50% | 3 (50%) | 8 (88,9%) | +166% |
| Apellyasiya məhkəmə tərkibinə etiraz | 1 (0,02%) | 1 (0,02%) | - | 1 (100%) | 1 (100%) | - |

## 3.3. Yekunlaşdırılmış işlərin iddianın növləri üzrə təhlili

Hesabat dövründə İnzibati Kollegiyada yekunlaşdırılmış işlərin iddianın növünə görə bölgüsü aşağıdakı kimi olmuşdur:



## 3.4. Kassasiya şikayətinin mümkünlüyünə dair məlumatlar

Hesabat dövründə yekunlaşdırılmış 3237 iş (ümumilikdə yekunlaşdırılmış iş sayı 3246 işə bərabərdir, bununla belə bu təhlildə yalnız apellyasiya məhkəmələrinin aktlarından verilmiş kassasiya şikayətləri üzrə icraatda olmuş işlər nəzərə alınmış, aşağı instansiya məhkəmələrinin aidiyyət müraciətləri və etirazlar ümumi saya daxil edilməmişdir: 3246-8-1=3237) üzrə kassasiyanın mümkünlüyünün yoxlanılması nəticələri aşağıdakı kimi olmuşdur:




*Apellyasiya instansiyası məhkəmələri üzrə göstəricilər (yekunlaşdırılmış işlərə münasibətdə faiz nisbəti ilə verilməklə)*



***Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi ilə bağlı illər üzrə göstəricilər***






***Ali Məhkəmənin İnzibati Kollegiyasının "İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair" 2023-cü il 06 noyabr tarixli Qərardadının tətbiqi ilə bağlı mümkün sayılmayan kassasiya şikayətlərinin inzibati orqanlara münasibətdə bölgüsü***




## 3.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə təhlili

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 2102 | 2365 | +12,5% | 2062 | 1918 | -7% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 472 | 699 | +48,1% | 416 | 518 | +24,5% |
| Gəncə Apellyasiya Məhkəməsi | 319 | 338 | +6% | 361 | 245 | -32,1% |
| Şəki Apellyasiya Məhkəməsi | 317 | 321 | +1,3% | 345 | 247 | -28,4% |
| Şirvan Apellyasiya Məhkəməsi | 201 | 407 | +102,5% | 155 | 268 | +72,9% |
| Naxçıvan MR Ali Məhkəməsi | 64 | 54 | -15,6% | 56 | 41 | -26,8% |

**Daxil olan işlər kütləsi**




**Həll edilən işlər kütləsi**




## 3.6. Baxılmış işlərin nəticələrinə dair məlumatlar

Hesabat dövründə İnzibati kollegiyada mahiyyəti üzrə baxılmış işlərin nəticələri, o cümlədən vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş işlərin apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:

| Məhkəmələr | Kassasiya qaydasında baxılmış və vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş işlərin cəmi | | Dəyişdirilmədən saxlanılmış | | Ləğv edilmiş | | Dəyişdirilmiş | | İş üzrə icraata xitam | | Vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 |
| Bakı Apellyasiya Məhkəməsi | 1809 | 1743 | 954<br>52,8% | 529<br>30,4% | 316<br>17,5% | 271<br>15,5% | 14<br>0,8% | 13<br>0,7% | 7<br>0,4% | 10<br>0,6% | 518<br>28,6% | 920<br>52,8% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 368 | 461 | 191<br>51,9% | 140<br>30,4% | 53<br>14,4% | 60<br>13% | 3<br>0,8% | 4<br>0,9% | 2<br>0,5% | 1<br>0,2% | 119<br>32,2% | 256<br>55,5% |
| Gəncə Apellyasiya Məhkəməsi | 313 | 218 | 181<br>57,8% | 71<br>32,5% | 44<br>14,1% | 38<br>17,4% | 6<br>1,9% | 5<br>2,3% | 2<br>0,6% | 2<br>0,9% | 80<br>25,6% | 102<br>46,9% |
| Şəki Apellyasiya Məhkəməsi | 324 | 231 | 171<br>52,8% | 73<br>31,6% | 69<br>21,3% | 40<br>17,3% | 1<br>0,3% | 6<br>2,6% | - | 3<br>1,3% | 83<br>25,6% | 109<br>47,2% |
| Şirvan Apellyasiya Məhkəməsi | 142 | 214 | 71<br>50% | 60<br>28% | 22<br>15,5% | 41<br>19,2% | 1<br>0,7% | 2<br>0,9% | 1<br>0,7% | - | 47<br>33,1% | 111<br>51,9% |
| Naxçıvan MR Ali Məhkəməsi | 41 | 40 | 16<br>39% | 13<br>32,5% | 5<br>12,2% | 4<br>10% | - | - | - | - | 20<br>48,8% | 23<br>57,5% |
| Cəmi | 2997 | 2907 | 1584<br>52,9% | 886<br>30,5% | 509<br>17% | 454<br>15,6% | 25<br>0,8% | 30<br>1% | 12<br>0,4% | 16<br>0,6% | 867<br>28,9% | 1521<br>52,3% |

## Yekunlaşdırılmış işlərin inzibati orqanlara münasibətdə təhlili

### *2024-cü il üzrə:*




### *2025-ci il üzrə:*




### *Ötən ilin müvafiq göstəriciləri ilə müqayisə*

| İnzibati orqanlar | ƏƏSMN və tabeliyində olan qurumlar | Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumlar | Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar | Yerli icra hakimiyyəti orqanları | Digər orqanlar |
|---|---|---|---|---|---|
| Artıb-azalma faizləri | -1,7% | -25,5% | +30,2% | -20,8% | -12,7% |

### *İşlərin apellyasiya məhkəmələri üzrə bölgüsü*

| İnzibati orqan | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxçıvan MR Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Dövlət Sosial Müdafiə Fondu və tabeliyində olan qurumlar | 580 (60,2%) | 37 (3,8%) | 185 (19,1%) | 65 (6,7%) | 75 (7,9%) | 22 (2,3%) | 964 100% |
| Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar | 467 (71,2%) | 40 (6,1%) | 73 (11,1%) | 28 (4,3%) | 48 (7,3%) | - | 656 100% |
| Əmlak Məsələləri Dövlər Xidməti və tabeliyində olan qurumlar | 200 (49,1%) | 27 (6.6%) | 90 (22,1%) | 57 (14%) | 31 (7.7%) | 2 (0,5%) | 407 100% |
| Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi | 139 (40,5%) | 68 (19,5%) | 62 (17,8%) | 46 (13,2%) | 32 (9,2%) | - | 347 100% |
| Yerli icra hakimiyyəti orqanları | 142 (71,7%) | 9 (4,5%) | 16 (8%) | 4 (2%) | 19 (9,6%) | 8 (4%) | 198 100% |
| Müdafiə Nazirliyi və tabeliyində olan qurumlar | 51 (40%) | 27 (21,2%) | 26 (20,5%) | 8 (6,3%) | 14 (11%) | 1 (0,8%) | 127 100% |
| Yerli özünüidarəetmə orqanları | 44 (47,3%) | 8 (8,6%) | 21 (22,5%) | 8 (8,6%) | 11 (11.8%) | 1 (1,1%) | 93 100% |
| Elm və Təhsil Nazirliyi və tabeliyində olan qurumlar | 38 (60%) | 11 (17,4%) | 2 (3,1%) | 3 (18,9%) | 9 (14,2%) | - | 63 100% |
| Daxili işlər Nazirliyi və tabeliyində olan qurumlar | 43 (75,4%) | - | 6 (10,5%) | 3 (5,3%) | 3 (5,7%) | 2 (3,5%) | 57 100% |
| Dövlət Miqrasiya Xidməti | 34 (91,9%) | 1 (2,7%) | 1 (2,7%) | 1 (2,7%) | - | - | 37 100% |
| Ədliyyə Nazirliyi və tabeliyində olan qurumlar | 21 (60%) | 3 (8,5%) | 3 (8,5%) | 4 (11,4%) | 4 (11,4%) | - | 35 100% |
| Dövlət Gömrük Komitəsi və tabeliyində olan qurumlar | 18 (85,7%) | - | 2 (9,5%) | - | - | 1 (4,8%) | 21 100% |
| Digər orqanlar | 141 (60,1%) | 14 (6%) | 31 (13,4%) | 20 (8,6%) | 22 (9,5%) | 4 (1,7%) | 232 100% |
| Cəmi | 1918 (59,3%) | 245 (7,6%) | 518 (16%) | 247 (7,6%) | 268 (8,3%) | 41 (1,2%) | 3237 100% |

### *İşlər üzrə nəticələrin təhlili*

| İnzibati orqan | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş | Dəyişdirilmiş | İş üzrə icraata xitam verilmiş | Vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş | Cəmi baxılmış | Kassasiya icraatına xitam verilmiş | Kassasiya formal əsaslarla mümkün sayılmamış | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət Sosial Müdafiə Fondu və tabeliyində olan qurumlar | 200<br>21,7% | 65<br>7,0% | 6<br>0,7% | 2<br>0,2% | 650<br>70,4% | 923<br>100% | 3 | 38 | 964 |
| Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar | 180<br>28,8% | 159<br>25,4% | 1<br>0,2% | 8<br>1,3% | 278<br>44,4% | 626<br>100% | 7 | 23 | 656 |
| Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumlar | 175<br>51,5% | 79<br>23,2% | - | - | 86<br>25,3% | 340<br>100% | 1 | 66 | 407 |
| Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi | 61<br>19,1% | 33<br>10,3% | 21<br>6,6% | - | 204<br>63,9% | 319<br>100% | - | 28 | 347 |
| Yerli icra hakimiyyəti orqanları | 63<br>39,4% | 19<br>11,9% | - | - | 78<br>48,8% | 160<br>100% | 2 | 36 | 198 |
| Müdafiə Nazirliyi və tabeliyində olan qurumlar | 40<br>35,1% | 23<br>20,2% | 1<br>0,9% | - | 50<br>43,9% | 114<br>100% | - | 13 | 127 |
| Yerli özünüidarəetmə orqanları | 10<br>12,8% | 9<br>11,5% | - | - | 59<br>75,6% | 78<br>100% | - | 15 | 93 |
| Elm və Təhsil Nazirliyi və tabeliyindı olan qurumlar | 16<br>27,1% | 11<br>18,6% | - | 5<br>8,5% | 27<br>45,8% | 59<br>100% | 1 | 3 | 63 |
| Daxili işlər Nazirliyi və tabeliyində olan qurumlar | 18<br>45,0% | 6<br>15,0% | - | - | 16<br>40,0% | 40<br>100% | - | 17 | 57 |
| Dövlət Miqrasiya Xidməti | 13<br>54,2% | 2<br>8,3% | - | - | 9<br>37,5% | 24<br>100% | - | 13 | 37 |
| Ədliyyə Nazirliyi və tabeliyində olan qurumlar | 6<br>26,1% | 4<br>17,4% | - | - | 13<br>56,5% | 23<br>100% | 1 | 11 | 35 |
| Dövlət Gömrük Komitəsi və tabeliyində olan qurumlar | 11<br>57,9% | 3<br>15,8% | - | - | 5<br>26,3% | 19<br>100% | 1 | 1 | 21 |
| Digər orqanlar | 93<br>51,1% | 41<br>22,5% | 1<br>0,5% | 1<br>0,5% | 46<br>25,3% | 182<br>100% | 3 | 47 | 232 |
| Cəmi | 886<br>30,5% | 454<br>15,6% | 30<br>1,0% | 16<br>0,6% | 1521<br>52,3% | 2907<br>100% | 19 | 311 | 3237 |

### *Ali Məhkəmədə 2016-2025-ci illərdə ƏƏSMN, Dövlət Vergi Xidməti və Əmlak Məsələləri üzrə Dövlət Xidmətinin tərəf olduğu işlər barədə məlumat*



### *Mahiyyəti üzrə baxılmış işlərin təhlil:*

### *ƏƏSMN və tabeliyindəki qurumların cavabdeh olduğu işlər üzrə:*

| Məhkəmələr | Cəmi | İddiaçının kassasiya şikayəti 11,5% | | | İnzibati orqanın kassasiya şikayəti 88,5% | | | Tələbin mahiyyəti | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | təmin | rədd | vmt | təmin | rədd | vmt | pensiyalarla bağlı mübahisələr | əlilliklə bağlı mübahisələr | müavinətlərlə bağlı mübahisələr | Digər |
| Bakı Apellyasiya Məhkəməsi | 685 | 16 | 51 | 14 | 50 | 99 | 455 | 452 | 133 | 81 | 19 |
| Gəncə Apellyasiya Məhkəməsi | 101 | 1 | 8 | 2 | 11 | 20 | 59 | 34 | 64 | 3 | - |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 233 | 7 | 12 | 7 | 10 | 25 | 172 | 144 | 55 | 29 | 8 |
| Şəki Apellyasiya Məhkəməsi | 107 | 5 | 7 | 3 | 10 | 17 | 65 | 56 | 44 | 6 | 1 |
| Şirvan Apellyasiya Məhkəməsi | 92 | 1 | 6 | 1 | 12 | 13 | 59 | 57 | 25 | 6 | 4 |
| Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 22 | 1 | 1 | - | 1 | 2 | 17 | 17 | - | 4 | 1 |
| Cəmi | 1240 | 31 21,7% | 85 59,4% | 27 18,9% | 94 8,6% | 176 16% | 827 75,4% | 757 | 321 | 129 | 33 |

### *Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumların cavabdeh olduğu işlər üzrə:*

| Məhkəmələr | Cəmi | İddiaçının kassasiya şikayəti 71,5% | | | İnzibati orqanın kassasiya şikayəti 28,5% | | | Qeydiyyatı mübahisələndirilən əmlak növü | | | Qeydiyyatı mübahisələndirilən hüququn növü | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | təmin | rədd | vmt | təmin | rədd | vmt | Torpaq sahəsi | Yaşayış sahəsi | Qeyri-yaşayış sahəsi | Mülkiyyət | İcarə | İstifadə |
| Bakı Apellyasiya Məhkəməsi | 175 | 30 | 73 | 33 | 7 | 18 | 14 | 133 | 26 | 16 | 108 | 9 | 2 |
| Gəncə Apellyasiya Məhkəməsi | 20 | 3 | 5 | 3 | 1 | 6 | 2 | 17 | 3 | - | 14 | 1 | - |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 74 | 11 | 27 | 12 | 5 | 14 | 5 | 70 | 2 | 2 | 56 | 4 | - |
| Şəki Apellyasiya Məhkəməsi | 50 | 10 | 18 | 6 | 4 | 8 | 4 | 41 | 4 | 5 | 37 | 2 | 1 |
| Şirvan Apellyasiya Məhkəməsi | 19 | 3 | 3 | 4 | 4 | 3 | 2 | 15 | 2 | 2 | 10 | 1 | 1 |
| Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 2 | 1 | - | 1 | - | - | - | 2 | - | - | 2 | - | - |
| Cəmi | 340 | 58 23,9% | 126 51,9% | 59 24,3% | 21 21,6% | 49 50,5% | 27 27,8% | 278 | 37 | 25 | 227 | 17 | 4 |

### *Dövlət Vergi Xidməti və tabeliyində olan qurumların cavabdeh olduğu işlər üzrə:*

| Məhkəmələr | Cəmi | İddiaçının kassasiya şikayəti 13,9% | | | İnzibati orqanın kassasiya şikayəti 86,1% | | | Mübahisələndirilən vergi məbləği | | | Tələbin mahiyyəti | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | təmin | rədd | vmt | təmin | rədd | vmt | 50.000 manata qədər | 50.000-500.000 manat | 500.000 manatdan artıq | Vergi qərarlarının mübahisələndirilməsi | Borcun silinməsi | Digər |
| Bakı Apellyasiya Məhkəməsi | 440 | 15 | 30 | 8 | 96 | 86 | 205 | 88 | 61 | 47 | 186 | 38 | 224 |
| Gəncə Apellyasiya Məhkəməsi | 38 | 3 | 3 | 1 | 7 | 9 | 15 | 3 | 14 | 5 | 15 | 3 | 20 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 67 | 2 | 8 | 2 | 18 | 16 | 21 | 11 | 20 | 13 | 33 | 13 | 21 |
| Şəki Apellyasiya Məhkəməsi | 27 | 2 | 3 | 1 | 5 | 6 | 10 | 10 | 5 | - | 10 | 4 | 13 |
| Şirvan Apellyasiya Məhkəməsi | 46 | 2 | 6 | - | 10 | 13 | 15 | 6 | 16 | 5 | 22 | 9 | 15 |
| Cəmi | 618 | 24 27,9% | 50 58,1% | 12 14% | 136 25,6% | 130 24,4% | 266 50% | 118 | 116 | 70 | 266 | 59 | 293 |

### *Yekunlaşdırılmış işlər üzrə qərardadların təhlili:*

(Bu təhlil 2-1, 2-3 və 8-1 indeksi ilə qeydiyyatdan keçmiş işlər üzrə qərardadlar əsasında aparılmış, 15 indeksi ilə qeydiyyatdan keçmiş işlər (MXMT icraatı) daxil edilməmişdir.)

### *I. Apellyasiya məhkəmələrinə münasibətdə:*

| Prosessual məsələnin məzmunu | Bakı Apellyasiya Məhkəməsi | Gəncə Apellyasiya Məhkəməsi | Sumqayıt Apellyasiya Məhkəməsi | Şəki Apellyasiya Məhkəməsi | Şirvan Apellyasiya Məhkəməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| İddianın mümkünlüyü | 230 59,1% | 34 8,7% | 49 12,6% | 31 8% | 40 10,3% | 5 1,3% | 389 100% |
| Apelyasiya şikayətinin mümkünlüyü | 50 56,8% | 7 8% | 6 6,7% | 7 8% | 18 20,5% | - | 88 100% |
| Dövlət hesabına vəkillə təmin edilmə | 22 70,9% | - | 3 9,7% | 3 9,7% | 3 9,7% | - | 31 100% |
| İcraatın dayandırılması və ya təzələnməsi | 13 43,3% | 1 3,4% | 16 53,3% | - | - | - | 30 100% |
| Yeni açılmış hallar ilə bağlı ərizəyə baxılması | 16 59,3% | 3 11,1% | 7 25,9% | 1 3,7% | - | - | 27 100% |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Məhkəmə qərarının icrası ilə bağlı icraat, o cümlədən cərimə və ya digər məcburi icra tədbirlərinin tətbiqi | 20<br>91% | - | - | 1<br>4,5% | 1<br>4,5% | - | 22<br>100% |
| 3-cü şəxs qismində cəlb edilmə | 12<br>80% | - | 2<br>13,3% | 1<br>6,7% | - | - | 15<br>100% |
| Məhkəmə qərarına izah verilməsi | 11<br>91,7% | - | 1<br>8,3% | - | - | - | 12<br>100% |
| İş üzrə icraata xitam verilməsi | 4<br>66,7% | - | - | - | 2<br>33,3% | - | 6<br>100% |
| Ləğv planının təsdiq edilməsi(Maliyyə bazarlarına nəzarət orqanına qarşı mübahisələr üzrə) | 4<br>100% | - | - | - | - | - | 4<br>100% |
| Ərazi aidiyyətinin müəyyən edilməsi | 2 | - | - | - | - | - | 2<br>100% |
| Cəmi | 392<br>61,6% | 45<br>7,1% | 84<br>13,3% | 45<br>7,1% | 64<br>10,1% | 5<br>0,8% | 626<br>100% |

### *II. Kassasiya baxışının nəticələrinə münasibətdə:*

| Qərardadın məzmunu | Cəmi | Ümumi işlərlə faiz nisbəti | Dəyişdirilmə-dən saxlanılmış | Ləğv edilmiş | Kassasiya icraatına xitam verilmiş | Kassasiya şikayəti mümkün sayılmamış |
|---|---|---|---|---|---|---|
| İddianın mümkünlüyü | 389 | 62,1% | 84 | 25<br>(6,4%) | 2 | 278 |
| Apellyasiya şikayətinin mümkünlüyü | 88 | 14% | 5 | 5<br>(5,7%) | 2 | 76 |
| Dövlət hesabına vəkillə təmin edilmə barədə ərizə üzrə icraat | 31 | 5% | 2 | - | - | 29 |
| Yeni açılmış hallar ilə bağlı ərizə üzrə icraat | 27 | 4,3% | 4 | 2<br>(7,4%) | - | 21 |
| Məhkəmə qərarının icrası ilə bağlı icraat, o cümlədən cərimə və ya digər məcburi icra tədbirinin tətbiqi | 22 | 3,5% | 12 | 3<br>(13,6%) | - | 7 |
| Məhkəmə qərarına izah verilməsi | 12 | 2% | 5 | 4<br>(33,3%) | 1 | 2 |
| 3-cü şəxs qismində cəlb edilmə barədə vəsatət | 15 | 2,4% | 5 | 1<br>(6,7%) | | 9 |
| İcraatın dayandırılması və ya icraatın təzələnməsi | 30 | 4,8% | 4 | - | - | 26 |
| İş üzrə icraata xitam verilməsi | 6 | 1% | 1 | - | - | 5 |
| Ləğv planının təsdiq edilməsi (Maliyyə bazarlarına nəzarət orqanına qarşı mübahisələr üzrə) | 4 | 0,6% | 1 | 3<br>(75%) | - | - |
| Ərazi aidiyyətinin müəyyən edilməsi | 2 | 0,3% | - | - | 1 | 1 |
| Cəmi | 626 | 100% | 123 | 43<br>(6,9%) | 6 | 454 |

## 3.7. Müvəqqəti xarakterli müdafiə tədbirlərinə dair işlərin təhlili







***Müvəqqəti xarakterli müdafiə tədbirləri barədə ərizələr üzrə icraatla bağlı son 3 il üzrə göstəricilər:***



### *Kassasiya baxışının nəticələri*

| İş üzrə tərəf olan inzibati orqan | Cəmi | Dəyişdirilmədən saxlanılmış | Ləğv edilmiş (bu kateqoriyadan olan işlərincəminə münasibətdə faizlə) | İş üzrə icraata xitam verilmiş | Kassasiya icraatına xitam verilmiş | Kassasiya şikayəti mümkün sayılmamış | Vahid məhkəmə təcrübəsinə uyğun hesab edilmiş |
|---|---|---|---|---|---|---|---|
| Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar | 267 | 39 | 55 (20,6%) | 5 | - | 6 | 162 |
| Dövlət Sosial Müdafiə Fondu və tabeliyində olan qurumlar | 161 | 7 | 2 (1,2%) | 1 | - | 2 | 149 |
| Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumlar | 14 | 5 | 4 (28,6%) | - | - | 4 | 1 |
| Yerli icra hakimiyyəti orqanları | 11 | 10 | - | - | - | - | 1 |
| Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi | 9 | 1 | 3 (33,3%) | - | - | - | 5 |
| Digər orqanlar | 30 | 13 | 10 (33,3%) | - | 1 | 4 | 2 |
| Cəmi | 492 | 75 | 74 (15%) | 6 | 1 | 16 | 320 |

## 3.8. Aidiyyət və etirazlarla bağlı məlumatlar




- Bakı Apellyasiya Məhkəməsi 2 iş
- Sumqayıt İnzibati Məhkəməsi 2 iş
- Şəki Apellyasiya Məhkəməsi 2 iş
- Gəncə İnzibati Məhkəməsi 2 iş

| İllər | Ərazi aidiyyəti üzrə səlahiyyətli məhkəmənin müəyyən edilməsi | | Predmet aidiyyəti üzrə səlahiyyətli məhkəmənin müəyyən edilməsi |
|---|---|---|---|
| | inzibati məhkəmələr üzrə | apellyasiya məhkəmələri üzrə | |
| 2024 | 13 | - | - |
| 2025 | 10[1] | - | - |
| Artıb-azalma faizləri | -23% | - | - |




***Apellyasiya instansiyası məhkəmələrindən daxil olmuş etirazlarla bağlı məlumatlar***

| Etirazın verildiyi apellyasiya məhkəməsi | Etirazın əsası | Erirazın həlli |
|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | Məhkəmə tərkibinin özü-özünə etirazı (iddianın həmin məhkəməyə qarşı qaldırılması) | Etiraz təmin edilmiş, iş baxılması üçün Sumqayıt Apellyasiya Məhkəməsinə verilmiş |

## 3.9. Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə qəbul edilmiş kollegial qərarlar

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|---|
| 1 | "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.2, 57 və 59-cu maddələrinin tətbiqi zamanı inzibati aktın formasına dair | № 01/2025 | 13.03.2025 |
| Cəmi – 1 | | | |

[1] Apellyasiya instansiyası məhkəmələrinin ərazi aidiyyəti ilə bağlı qərardadlarından verilmiş 2 kassasiya şikayəti də təhlilə daxil edilmişdir.

## 3.10. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları

| (★★★ statuslu qərarlar) | | | |
|---|---|---|---|
| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
| 1 | Cəza çəkməkdən azad edilmiş şəxslərə sosial adaptasiya məqsədilə həyata keçirilən tədbirlərdən biri kimi birdəfəlik pul müavinətinin verilməsi | 2-1[102]-430/2025 | 07.03.2025 |
| 2 | Müddətsiz müəyyən edilmiş əlilliyin bərpa edilməsi | 2-1[102]-1043/2025 | 24.04.2025 |
| 3 | Adın, ata adının və soyadın dəyişdirilməsi | 2-1[102]-1414/2025 | 31.07.2025 |
| (★★★★ statuslu qərarlar) | | | |
| 1 | Gömrük ödənişlərinin tələb olunduğu bildiriş və ya məktubun şəxs üçün hüquqi nəticə yaratması | 2-1[102]-710/2025 | 13.03.2025 |
| Cəmi – 4 | | | |

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# IV BÖLMƏ

# KOMMERSİYA KOLLEGİYASI

04

## 4. Ali Məhkəmənin Kommersiya kollegiyasının fəaliyyətinə dair ümumi məlumat

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyası tərəfindən (bundan sonra – Kommersiya kollegiyası) hesabat dövründə işgüzar nüfuzun müdafiəsi ilə əlaqədar yaranan mübahisələrin həlli zamanı qanunvericiliyin tətbiqi üzrə hüquqi yanaşmanın sabitliyinin təmin olunması və vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" Ali Məhkəmənin Plenum (bundan sonra – Plenum) qərarının işgüzar nüfuzun müdafiəsinə dair hissəsinin layihəsi hazırlanmış və Plenumun 2025-ci il 24 dekabr tarixli qərarı ilə təsdiq edilmişdir.

Hesabat dövründə "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Plenumun 14 dekabr 2023-cü il tarixli Qərarının tətbiqi ilə bağlı 01 yanvar 2024-cü ildən 01 yanvar 2025-ci ilədək dövr üzrə məhkəmələrin fəaliyyətinin monitorinqi keçirilmiş, nəticələri təhlil edilmiş, həmin Qərara əlavə və dəyşikliklər layihəsi hazırlanmışdır. Plenumun 2025-ci il 24 dekabr tarixli Qərarı ilə qeyd olunan əlavə və dəyişikliklər qəbul olunmuşdur.

Kommersiya kollegiyası 2025-ci ildə qəbul etdiyi qərarlarla qanunvericiliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı müxtəlif hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırmış və 3 iş üzrə 3 ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə qərarları qəbul edilərək, axtarış sisteminə daxil edilmişdir.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurasının 2025-ci il 23 oktyabr tarixli iclasında "Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi" mövzusunda müzakirələr təşkil edilmişdir. Müzakirələr zamanı həmin kateqoriya mübahisələrin həlli zamanı ortaya çıxan nəzəri və praktik problemlər, onların həlli yolları nəzərdən keçirilmişdir.

Podrat müqaviləsindən irəli gələn mübahisələrin həlli zamanı qanunvericiliyin tətbiqi üzrə hüquqi yanaşmanın sabitliyinin təmin olunması və vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə "Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmənin Plenum qərarının layihəsi hazırlanaraq müzakirəyə təqdim olunmuşdur.

Kommersiya mübahisələri üzrə vahid məhkəmə təcrübəsinin bərqərar olması və məhkəmə aktlarının sabitliyinin təmin edilməsi məqsədilə, ötən illərdə olduğu kimi, cari hesabat dövründə də Kommersiya kollegiyasında apellyasiya instansiyası məhkəmələrinin təkrar ləğv edilmiş məhkəmə aktlarının ləğvinin əsasları təhlil edilmişdir.

28 fevral 2025-ci il tarixində Azərbaycan Hakimlərinin I Forumu çərçivəsində, "Kommersiya mübahisələri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti, islahatlar və müasir çağırışlar" mövzusunda panel müzakirələr təşkil edilmişdir.

Kommersiya kollegiyasının sədri 14 may 2025-ci il tarixində Bakı şəhərində keçirilmiş, "Mübahisələrin həlli və məhkəmə sisteminin inkişafına dair sahibkarlarla görüş" mövzusuna həsr olunmuş, Milli Biznesin İnkişafı Forumu çərçivəsində panel müzakirələrdə iştirak etmiş, kommersiya subyektləri tərəfindən qaldırılan suallar cavablandırılmışdır.

Kommersiya kollegiyasının hakimləri 2025-ci ilin 24-25 oktyabr tarixlərində Bakı şəhərində Bakı Arbitraj Mərkəzinin açılış mərasiminə həsr olunmuş beynəlxalq konfransda iştirak etmişlər. 2025-ci ilin oktyabrın 31-də isə “Konstitusiya və Suverenlik İli” çərçivəsində Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində “Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar” mövzusunda konfransda iştirak etmişlər.

Kommersiya kollegiyası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və təbii inhisar subyektləri-«Azəriqaz» İB-yi və «Azərişıq» ASC-nin nümayəndələri ilə görüşlər keçirmiş, məhkəmə təcrübəsində rast gəlinən problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür. Kollegiya həmçinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsi və Azərbaycan Qiymətləndiricilər Palatasının nümayəndələri ilə görüşdə də iştirak etmişdir. Kommersiya mübahisələri sahəsində təcrübənin vahidliyinin təmin edilməsi məqsədi ilə Kommersiya kollegiyasının sədri tərəfindən il ərzində mütəmadi qaydada respublika üzrə fəaliyyət göstərən hakimlərin iştirakı ilə mütəmadi aylıq videokonfrans formatında görüşlər keçirilmiş, təcrübədə rast gəlinən mübahisəli hüquqi məsələlərə dair suallar ətrafında müzakirələr aparılaraq müvafiq izahlar verilmişdir.

2025-ci ilin 5-10 aprel tarixlərində Türkiyə Respublikasının Ali Məhkəməsi (Yargıtay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının sədrinin başçılıq etdiyi Ali Məhkəmə, apellyasiya və birinci instansiya məhkəmələrinin hakimlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olmuş, korporativ mübahisələrin dairəsi və baxılması xüsusiyyətləri, podrat mübahisələrinə baxılmasının xüsusiyyətləri, arbitraj prosesində məhkəmələrin yardım və nəzarət funksiyaları, xarici elementli kommersiya mübahisələrinə baxılmasının xüsusiyyətləri, məhkəmələrin beynəlxalq səlahiyyəti və hüququn digər sahələri ilə bağlı məhkəmə təcrübəsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

2025-ci il ərzində Kommersiya kollegiyasının sədri tərəfindən 21 vətəndaşın qəbulu (15 qəbul) həyata keçirilmişdir.

## 4.1. İcraatda olmuş işlər üzrə ümumi statistik məlumatlar

Hesabat dövründə Kommersiya kollegiyasının icraatında olmuş işlər, o cümlədən qalıq keçmiş işlər, daxil olmuş işlər, həmin işlərdən yekunlaşdırılmış və növbəti hesabat dövrünə qalıq keçmiş işlərlə bağlı statistik məlumatlar aşağıdakı diaqramlarda əks etdirilmişdir:

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat[1] | 795 | 937 | +142 (+17,9%) |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 76 (9,5%) | 83 (8,9%) | +7 (+9,2%) |
| Hesabat dövründə daxil olan işlər | 719 (90,5%) | 854 (91,1%) | +135 (+18,8%) |
| Yekunlaşdırılmış işlər | 712 (89,5%) | 769 (82%) | +57 (+8%) |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 83 (10,5%) | 168 (18%) | +85 (+102,4%) |




[1] Bu təhlilə xarici ölkələrin qətnamələrinin tanınması və icrası barədə işlər daxil edilməmişdir, həmin məlumatlar Hesabatın 5.15-ci paraqrafında verilmişdir.

## 4.2. İcraatda olmuş işlərin növləri üzrə (indeks və predmet üzrə) təhlili

İl ərzində icraatda olan kommersiya mübahisələrinin icraatların növü üzrə (indeks üzrə) bölgüsü aşağıdakı qaydada olmuşdur:

| İcraatın növü | Cəmi icraat | | | İşlərin yekunlaşdırılma göstəriciləri | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| Kommersiya mübahisələri | 795 (100%) | 937 (100%) | +17,9% | 712 (89,5%) | 769 (82,1%) | +8% |
| Onlardan: qətnamə | 666 (83,8%) | 799 (85,3%) | +20% | 587 (88,1%) | 633 (79,2%) | +7,8% |
| Onlardan: qərardad | 43 (5,4%) | 47 (5%) | +9,3% | 40 (90,6%) | 46 (97,9%) | +15% |
| Onlardan: aidiyyət mübahisələri | 82 (10,3%) | 87 (9,3%) | +6,1% | 82 (100%) | 87 (100%) | +6,1% |
| Təqdimat | 3 (0,35%) | 3 (0,3%) | - | 2 (66,7%) | 2 (66,7%) | - |
| Məhkəmə tərkibinə etiraz | 1 (0,15%) | 1 (0,1%) | - | 1 (100%) | 1 (100%) | - |

## 4.3. Kassasiya şikayətinin mümkünlüyünə dair statistik məlumatlar

Hesabat dövründə yekunlaşdırılmış 679 iş (ümumilikdə yekunlaşdırılmış iş sayı 769 işə bərabərdir, bununla belə bu təhlildə yalnız apellyasiya məhkəmələrinin aktlarından verilmiş kassasiya şikayətləri üzrə icraatda olmuş işlər nəzərə alınmış, məhkəmə aidiyyətinə dair mübahisələlər, məhkəmə tərkibinə etiraz və təqdimatlar ümumi saya daxil edilməmişdir: 769-87-2-1=679) üzrə kassasiyanın mümkünlüyünün yoxlanılması nəticələri aşağıdakı kimi olmuşdur:



### *Kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsü (yekunlaşdırılmış işlərə münasibətdə faiz göstərici ilə)*




### *Qeyri-mümkün hesab edilmiş və kassasiya baxışından çıxarılmış kassasiya şikayətlərinin apellyasiya instansiyası məhkəmələri üzrə bölgüsü*



### *Kassasiya şikayətlərinin qeyri-mümkün hesab edilməsi və kassasiya baxışından çıxarılması ilə bağlı son 5 ilin göstəriciləri*




### *Ötən ilin göstəriciləri ilə müqayisəli təhlili*



***Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi əsasları***

### *Aradan qaldırıla bilən pozuntular:*




### *Aradan qaldırılması mümkün olmayan pozuntular:*




## 4.4. Kassasiya baxışının nəticələri barədə ümumi məlumatlar

Hesabat dövründə Kommersiya kollegiyasında baxılmış işlərin nəticələri, o cümlədən kassasiya icraatına xitam verilmiş işlər aşağıdakı kimi olmuşdur:

| Kassasiya baxışının nəticələri | 2024 | 2025 | Faiz göstəricilərinin müqayisəsi |
|---|---|---|---|
| Məhkəmə aktının dəyişdirilmədən saxlanılması | 446 iş (80,7%) | 498 iş (81,1%) | +0,4% |
| Məhkəmə aktının dəyişdirilməsi | 2 iş (0,9%) | 5 iş (0,8%) | -0,1% |
| Məhkəmə aktının ləğv edilməsi | 94 iş (17,3%) | 111 (18,1%) | +0,8% |
| Cəmi | 542 iş (100%) | 614 (100%) | - |
| O cümlədən, kassasiya icraatına xitam verilməsi | - | 1 iş | - |

## 4.5. Daxil olmuş və yekunlaşdırılmış işlərin apellyasiya məhkəmələri üzrə bölgüsünə dair məlumatlar

| Məhkəmələr | Daxil olan işlər | | | Yekunlaşdırılmış işlər | | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | Artıb-azalma faizi | 2024 | 2025 | Artıb-azalma faizi |
| Bakı Apellyasiya Məhkəməsi | 432 | 489 | +13,2% | 428 | 460 | +7,5% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 36 | 49 | +36,1% | 40 | 42 | +5% |
| Gəncə Apellyasiya Məhkəməsi | 70 | 64 | -8,6% | 71 | 58 | -18,3% |
| Şəki Apellyasiya Məhkəməsi | 38 | 54 | +42,1% | 33 | 42 | +27,3% |
| Şirvan Apellyasiya Məhkəməsi | 50 | 86 | +72% | 46 | 63 | +37% |
| Naxçıvan MR Ali Məhkəməsi | 8 | 22 | +175% | 9 | 14 | +55,6% |
| Cəmi | 631 | 764 | 21% | 627 | 679 | +7,7% |

### Daxil olan işlər kütləsi




### Həll edilən işlər kütləsi



## 4.6. Baxılmış işlərin (614 iş) kateqoriyaları üzrə təhlili

***Ötən ilin göstəriciləri ilə müqayisəli təhlil:***

| № | İşlərin kateqoriyaları | Baxılmış işlərin sayı | | Ləğv[1] |
|---|---|---|---|---|
| | | 2024 | 2025 | 2025 |
| 1 | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 27 (5%) | 29 (4,7%) | 11 (37,9%) |
| 2 | Torpaq münasibətlərindən irəli gələn mübahisələr | 8 (1,5%) | 12 (2%) | 4 (33,3%) |
| 3 | Korporativ mübahisələr | 18 (3,3%) | 18 (2,9%) | 4 (22,2%) |
| 4 | Müqavilə münasibətlərindən irəli gələn mübahisələr (ümumi) | 366 (68%) | 418 (68,1%) | 70 (16,7%) |
| | • Alqı-satqı müqaviləsi üzrə mübahisələr | 107 | 102 | 18 (17,6%) |
| | • İcarə müqaviləsi üzrə mübahisələr | 46 | 61 | 11 (18%) |
| | • Kredit müqaviləsi üzrə mübahisələr | 111 | 151 | 23 (20,7%) |
| | • Lizinq müqaviləsi üzrə mübahisələr | 13 | 16 | 3 (18,7%) |
| | • Podrat müqaviləsi üzrə mübahisələr | 40 | 29 | 7 (24,1%) |
| | • Tapşırıq müqaviləsi üzrə mübahisələr | 10 | 4 | - |
| | • Daşıma müqaviləsi üzrə mübahisələr | 7 | 15 | 3 (20%) |
| | • Digər müqavilələrdən irəli gələn mübahisələr | 32 | 40 | 5 (12,5%) |
| 5 | Təbii inhisar subyektlərinin iştirak etdiyi mübahisələr | 33 (6,1%) | 20 (3,2%) | 4 (20%) |
| 6 | Hüquqi və fiziki şəxslərin ödəmə qabiliyyəti olmayan hesab edilməsi barədə mübahisələr (müflisləşmə) | - | 3 (0,5%) | 1 (33,3%) |
| 7 | Əqli mülkiyyət hüququ ilə bağlı mübahisələr | - | 2 (0,3%) | 2 (100%) |
| 8 | Xüsusi icraat qaydasında baxılan işlər (ümumi) | 35 (6,5%) | 39 (6,4%) | 3 (7,7%) |
| | • Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər | 28 | 35 | 3 (8,6%) |
| | • Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi | 7 | 4 | - |
| 9 | İcra icraatından irəli gələn mübahisələr | 1 (0,2%) | - | - |
| 10 | Sair kommersiya mübahisələri | 54 (9,4%) | 73 (11,9%) | 12 (16,4%) |
| | Cəmi: | 542 (100%) | 614 (100%) | 111 (18%) |

[1] Ləğv faizləri eyni kateqoriya üzrə baxılmış işlərin cəminə münasibətdə hesablanmışdır.

***Kassasiya qaydasında baxılmış qərardadların təhlili***

### *I. Apellyasiya instansiyası məhkəmələrinə münasibətdə bölgü:*

| Prosesual məsələnin məzmunu | Bakı AM | Sumqayıt AM | Gəncə AM | Şəki AM | Şirvan AM | Cəmi |
|---|---|---|---|---|---|---|
| Apellyasiyanın qeyri-mümkünlüyü | 4 (57,1%) | - | 1 (14,3%) | 2 (28,6%) | - | 7 (100%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 11 (78,6%) | 2 (14,3%) | 1 (7,1%) | - | - | 14 (100%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 5 (45,5%) | - | 4 (36,3%) | 2 (18,2%) | - | 11 (100%) |
| İş üzrə icraata xitam verilməsi | 7 (63,6%) | - | 2 (18,2%) | - | 2 (18,2%) | 11 (100%) |
| MPM 402.2.5 | 1 (100%) | - | - | - | - | 1 (100%) |
| Cəmi | 28 (63,6%) | 2 (4,6%) | 8 (18,2%) | 4 (9,1%) | 2 (4,6%) | 44 (100%) |

### *II. Kassasiya baxışının nəticələrinə münasibətdə bölgü:*

| Prosessual məsələnin məzmunu | Cəmi | Ümumi qərardadlara faiz nisbəti | Dəyişdiril-mədən saxlanılmış | Dəyişdiril-miş | Ləğv edilmiş |
|---|---|---|---|---|---|
| Apellyasiyanın qeyri-mümkünlüyü | 7 (100%) | 15,9% | 2 (28,6%) | - | 5 (71,4%) |
| Kassasiya şikayətinin geri qaytarılması | 14 (100%) | 31,8% | 13 (92,8%) | - | 1 (7,2%) |
| Kassasiya şikayəti verilməsi üçün ötürülmüş müddətin bərpası | 11 (100%) | 25% | 9 (81,8%) | - | 2 (18,2%) |
| Iş üzrə icraata xitam verilməsi | 11 (100%) | 25% | 7 (63,6%) | 1 (9,1%) | 3 (27,3%) |
| MPM 402.2.5 | 1 (100%) | 2,3% | 1 (100%) | - | - |
| Cəmi | 44 (100%) | 100% | 1 (2,3%) | 32 (72,7%) | 11 (25%) |

## 4.7. Kassasiya baxışının nəticələrinin apellyasiya məhkəmələrinə münasibətdə təhlili

Hesabat dövründə Kommersiya kollegiyasında baxılmış işlərin nəticələri (iddiadan imtina, barışıq sazişi və sairə obyektiv əsaslarla ləğv edilmiş məhkəmə aktları da daxil olmaqla) apellyasiya instansiyası məhkəmələrinə münasibətdə aşağıdakı kimi olmuşdur:




## 4.8. Xarici elementli kommersiya mübahisələrinə dair məlumat

Hesabat dövründə Kommersiya kollegiyasında baxılmış cəmi 614 işdən 21 iş, yəni 3,4% hissəsini xarici elementli kommersiya mübahisələri təşkil etmişdir.



***Hesabat dövründə Kommersiya kollegiyasında baxılmış hər 29 kommersiya mübahisəsindən bir 1 işdə xarici şəxs iştirak etmişdir.***

***Xarici elementlərin subyekt tərkibinə görə bölgüsü***




***Xarici elementli kommersiya mübahisələrinin kateqoriyaları (mübahisə predmeti) üzrə bölgüsü***




## 4.9. Məhkəmə aidiyyətinə dair mübahisələrlə bağlı məlumatlar

***Aidiyyət işlərinin daxil olduğu birinci instansiya məhkəmələrinin yurisdiksiyasında olduğu apellyasiya məhkəmələri üzrə bölgü***



***Kommersiya kollegiyasında məhkəmə aidiyyətinə dair baxılmış işlərin son 5 il üzrə müqayisəsi***




Aidiyyət mübahisələrinin yekun nəticələrinə dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

| Aidiyyət işlərinin cəmi | | Qərardadlardan verilmiş şikayətlərin nəticəsi | | | | Məhkəmələr arasında fikir ayrılığının həlli |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Şikayət təmin edilmiş, qərardad ləğv edilmiş | Şikayət rədd edilmiş, qərardad dəyişdirilmədən saxlanılmış | Şikayət qeyri-mümkün hesab edilmiş | |
| 2024 | 82 | 32 (39%) | 5 (15,6%) | 27 (84,4%) | - | 50 (61%) |
| 2025 | 87 | 34 (39%) | 9 (31%) | 20 (69%) | 5 | 53 (61%) |

***Ləğv edilmiş məhkəmə aidiyyətinə dair qərardadların təhlili***

| Düzgün müəyyən edilməyən qiymətləndirici meyarın növü | Bakı AM-in yurisdiksiyası üzrə | Sumqayıt AM-in yurisdiksiyası üzrə | Şirvan AM-in yurisdiksiyası üzrə | Cəmi |
|---|---|---|---|---|
| Mübahisə predmeti | 1 | 1 | - | 2 |
| Münasibətin xarakteri | - | - | 2 | 2 |
| Subyektiv tərkib | 2 | - | 1 | 3 |
| MPM-in 30-cu maddəsinin tələbləri | 2 | - | - | 2 |
| Cəmi | 5 | 1 | 3 | 9 |

## 4.10. İcraatda olmuş digər işlər barədə məlumatlar

***Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlər üzrə statistik təhlil***

| Göstəricilər | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Cəmi icraat | 37 | 39 | +5,4% |
| Ötən hesabat dövründən qalıq keçən işlər | 8 (21,6%) | 3 (7,7%) | -62,5% |
| Hesabat dövründə daxil olan işlər | 29 (78,4%) | 36 (92,3%) | +24,1% |
| Yekunlaşdırılmış işlər | 34 (91,8%) | 28 (71,8%) | -17,6% |
| Növbəti hesabat dövrünə qalıq keçən işlər | 3 (8,2%) | 11 (28,2%) | 2,6 dəfə artım |

***Yekunlaşdırılmış işlər üzrə qətnamələrin tanınma və icra proseduruna görə təhlili:***

| İşlərin növü | 2024 | 2025 | Artıb-azalma faizləri |
|---|---|---|---|
| Xarici məhkəmələrin qətnamələrinin tanınması | 1 | - | - |
| Xarici məhkəmələrin qətnamələrinin icrası | - | 1 | - |
| Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası | 33 | 27 | -18,1% |
| Cəmi | 34 | 28 | -17,6% |

Tanınması üçün müraciət edilən xarici məhkəmə və arbitraj qətnamələrinin məzmunu pul vəsaitinin tutulması təşkil etmişdir.

***Tanınması üçün müraciət edilən qətnamənin növü***




***Xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası barədə işlərin nəticələrinin təhlili***



**Tanınmadan imtina əsasları:**

"Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının və MPM-in 476-cı maddəsinin tələblərinə əsasən 1 iş üzrə arbitraj məhkəməsinin qərarının tanınmasından imtina edilmişdir.

***Plenum icraatı ilə bağlı ərizə və şikayətlər üzrə statistik təhlil***

| Müraciətin növü | Cəmi icraat | | Artıb-azalma faizləri | Yekunlaşdırılmış | | Artıb-azalma faizləri |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | | 2024 | 2025 | |
| Əlavə kassasiya şikayətləri | 31 | 38 | +22,6% | 31 | 36 | +16,1% |
| Yeni açılmış hallar üzrə icraatla bağlı ərizələr | 13 | 10 | -30% | 13 | 10 | -23% |
| İşdə iştiraka cəlb edilməyən, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri | 1 | 2 | +100% | 1 | 2 | +100% |
| Cəmi | 45 | 50 | +11,1% | 45 | 48 | +6,7% |

***Plenum icraatı ilə bağlı ərizə və şikayətlərə baxılma nəticələrinin təhlili***

| Müraciətin növü | Baxılmış | | Rədd edilmiş | | Plenuma çıxarılmış | |
|---|---|---|---|---|---|---|
| | 2024 | 2025 | 2024 | 2025 | 2024 | 2025 |
| Əlavə kassasiya şikayətləri | 31 | 36 | 31 | 36 | - | - |
| Yeni açılmış hallar üzrə icraatla bağlı ərizələr | 13 | 10 | 13 | 10 | - | - |
| İşdə iştiraka cəlb edilməyən, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri | 1 | 2 | 1 | 2 | - | - |
| Cəmi | 45 | 48 | 45 | 48 | - | - |

***Apellyasiya instansiyası məhkəmələrindən daxil olmuş etirazlarla bağlı məlumatlar***

| Etirazın verildiyi apellyasiya məhkəməsi | Etirazın əsası | Etiraz təmin edilmiş, iş baxılması üçün başqa apellyasiya məhkəməsinə verilmiş |
|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | Məhkəmə tərəfindən işə qərəzli yanaşılması | 1 |

## 4.11. Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan və ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə aktları (★★★ statuslu qərarlar)

| № | Qərarın mahiyyəti | Qərarın nömrəsi | Qərarın qəbul edilmə tarixi |
|---|---|---|---|
| 1 | İş üzrə icraata xitam verilməsi | 2-2(102)-46/2025 | 08.01.2025 |
| 2 | Müflisləşmə işləri üzrə | 2-2(102)-168/2025 | 23.04.2025 |
| 3 | Xarici elementli kommersiya mübahisələri üzrə | 2-2(102)-574/2025 | 20.08.2025 |
| Cəmi – 3 | | | |

## 4.12. Baxılmış işlər üzrə dövlət rüsumlarına dair məlumatlar



AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# V BÖLMƏ

# ALİ MƏHKƏMƏNİN PLENUMU

05

## 5. Ali Məhkəmənin Plenumunun fəaliyyətinə dair ümumi məlumat

Hesabat dövründə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimovun sədrliyi ilə Ali Məhkəmənin Plenumunun (bundan sonra – Plenum) 9 iclası (24 yanvar, 4 aprel, 14 aprel, 5 iyun, 4 iyul, 7 oktyabr, 27 oktyabr, 24 dekabr, 26 dekabr 2025-ci il tarixlərində) keçirilmişdir.

Hesabat dövründə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsini formalaşdırmaq və hüququn inkişafını təmin etmək məqsədlərinə yönəlmiş fəaliyyəti davam etdirilərək "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" 2025-ci il 4 iyul tarixli 11 nömrəli və "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" 2025-ci il 24 dekabr tarixli Plenum qərarları qəbul edilmişdir.

O cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2016-cı il 28 mart tarixli 8-2/2016 nömrəli, "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2011-ci il 28 oktyabr tarixli 6/2011 nömrəli, "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" 2015-cı il 10 aprel tarixli 5 nömrəli qərarlarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması qərara alınmış, "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2023-cü il 29 sentyabr tarixli Qərarının və "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 15 dekabr 2023-cü il tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri təsdiq edilmiş, sözügedən qərarlara əlavə və dəyişikliklər edilmişdir.

Həmçinin, "Ərizənin baxılmamış saxlanılması barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 2011-ci il 31 mart tarixli 3 nömrəli, "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" 2020-ci il 18 sentyabr tarixli 10 nömrəli, "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" 2015-ci il 10 aprel tarixli 5 nömrəli, "Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi-məsləhət şurasının tərkibinin müəyyən edilməsi barədə" 2023-cü il 19 may tarixli 12 nömrəli, "Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 2005-ci il 27 may tarixli 2 nömrəli, "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" 2008-ci il 30 iyun tarixli 4 nömrəli, "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" 2023-cü il 4 oktyabr tarixli 14 nömrəli Azərbaycan Respublikası Ali

Məhkəməsi Plenumunun qərarlarına dəyişikliklər edilməsi, “Müttəhimin müdafiə hüququnu təmin edən qanunların məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” 1994-cü il 2 dekabr tarixli 6 nömrəli və “Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında” 1996-cı il 27 dekabr tarixli 5 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının qüvvədən düşmüş hesab edilməsi ilə qərara alınmışdır.

05 iyun 2025-ci il tarixdə birinci instansiya məhkəmələrinə təyinat alan 38 hakimin, 26 dekabr 2025-ci il tarixdə 34 hakimin andiçməsi keçirilmişdir.

Hesabat dövründə Plenumda əlavə kassasiya qaydasında 1 mülki işə, yeni açılmış hallara dair ərizə əsasında 2 mülki işə, eyni zamanda intizam məsuliyyətinə cəlb edilmə haqqında Məhkəmə-Hüquq Şurasının qərarından verilmiş şikayətə (cəmi 4 iş) baxılmışdır.

## 5.1. Ali Məhkəmənin Plenumunun icraatında olmuş işlər barədə məlumat

| İcraatın növləri | Ləğv, kassasiya məhkəməsində baxış | Ləğv, apellyasiya məhkəməsində baxış | Ləğv, birinci instansiya məhkəməsində baxış | Dəyişdirilmiş |
|---|---|---|---|---|
| **Mülki işlər üzrə** | | | | |
| Əlavə kassasiya icraatı | 1 | | | |
| Yeni açılmış hallar üzrə icraat | | | 2 | |
| Konstitusiya Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| **Cinayət işləri üzrə** | | | | |
| Əlavə kassasiya icraatı | | | | |
| Yeni açılmış hallar üzrə icraat | | | | |
| Konstitusiya Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| **İnzibati mübahisələr üzrə** | | | | |
| Konstitusiya Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| **Kommersiya mübahisələri üzrə** | | | | |
| Əlavə kassasiya icraatı | | | | |
| Yeni açılmış hallar üzrə icraat | | | | |
| Konstitusiya Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |
| İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən daxil olmuş işlər üzrə icraat | | | | |

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ